Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin "25" avqust 2022-ci il tarixli 1000/182 nömrəli sərəncamı ilə təsdiq edilmişdir.

# GÖMRÜK XİDMƏTİNİN FƏALİYYƏT PROQRAMI

Avqust, 2022-ci il

# GÖMRÜK XİDMƏTİNİN FƏALİYYƏT PROQRAMI

## I. Giriş

**"Gömrük xidmətinin Fəaliyyət Proqramı"** (bundan sonra – **"Proqram"**) Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin qısa və orta müddətli perspektiv hədəflərini, prioritet sahələrini və vəzifələrini müəyyən edən strateji planlaşdırma sənədidir.

Son illərdə ölkəmizdə aparılan uğurlu iqtisadi islahatlar çərçivəsində dövlət sərhəd keçid məntəqələrinin buraxılış qabiliyyətinin artırılması, malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiq edilməsi, idxal-ixrac əməliyyatlarının gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi və ticarətin asanlaşdırılması üzrə gömrük sistemində bir sıra işlər aparılmışdır. Bununla yanaşı, gömrük prosedurlarından tam istifadə olunmasında, gömrük qaydalarının tətbiqində, gömrük dəyərinin hesablanmasında, gömrük alətlərinin əlçatanlığında və rahatlığında, sahibkarlıq subyektlərinin və şəxslərin məmnunluğunda, gömrük orqanları ilə əlaqələrin şəffaflığında nöqsanlar və təhdidlər hələ də mövcuddur. Eyni zamanda e-ticarət kimi yeni biznes modellərinin tətbiqi ilə sürətlə dəyişən qlobal mühit gömrük orqanlarının iş yükünü xeyli dərəcədə artırmışdır. Koronavirus (COVİD-19) pandemiyasının dünya iqtisadiyyatına əhəmiyyətli təsiri gömrük orqanlarının ağıllı texnologiyalara əsaslanan üsullarla idarə olunmasını daha vacib etmişdir. Yaranmış bu reallıq gömrük məqsədləri üçün mal və nəqliyyat vasitələri barədə məlumatların öncədən təhlilini, eləcə də müvafiq proqnozlaşdırma və müasir idarəetmə alətlərinin işlənib hazırlanmasını zəruri edir.

Yeni iqtisadi və ictimai-siyasi çağırışlar gömrük orqanları üzərinə aşağıdakı yeni vəzifələr qoyur:

- Şəffaf olmaq, maraqlı tərəflərlə açıq çalışmaq, innovasiyalara və davamlılığa sadiq qalmaq;
- Təchizat zəncirinə riskə əsaslanan smart nəzarət sistemləri tətbiq etməklə ticarəti asanlaşdırmaq, eyni zamanda cəmiyyəti, milli-mənəvi irsimizi, ətraf mühiti və ölkə iqtisadiyyatını bütün mümkün təhdidlərdən qorumaq.

### 1. DGK-nın Strateji baxışı:

**1.1.** Beynəlxalq ticarət iştirakçıları və vətəndaşların məmnuniyyətini təmin etmək;

**1.2.** Dayanıqlı və şaxələndirilmiş ölkə iqtisadiyyatına dəstək olmaq;

**1.3.** Gömrük inzibatçılığını beynəlxalq təcrübəyə uyğunlaşdırmaq;

**1.4.** Şəffaflıq və aşkarlıq şəraitində büdcə daxilolmalarının dayanıqlılığını təmin etmək;

**1.5.** Azərbaycan Respublikasının milli və iqtisadi maraqlarını etibarlı surətdə müdafiə etməklə regionun ən nüfuzlu gömrük xidməti olmaq.

### 2. DGK-nın Missiyası:

**2.1.** Gömrük xidmətlərini hamı üçün əlçatan və əlverişli səviyyəyə yüksəltmək;

**2.2.** Risklə ölçülmüş nəzarət mexanizmləri tətbiq etmək, gömrük inzibatçılığını çevik və optimal vəziyyətə gətirmək;

**2.3.** Malların, nəqliyyat vasitələrinin və sərnişinlərin sərhəd keçidində ölkənin təhlükəsizliyinin təmin edilməsinə nail olmaq və gömrük prosedurlarını rəqəmsallaşdırmaqla ticarəti asanlaşdırmaq;

**2.4.** Ölkənin iqtisadi maraqlarına cavab verən xarici ticarət əlaqələrinə, həmçinin qeyri-neft ixracının stimullaşdırılmasına əlverişli şərait yaratmaq;

**2.5.** İstedadlı və peşəkar kadr heyəti formalaşdırmaq, innovativ gömrük modeli yaratmaqla rəqabətqabiliyyətli iqtisadiyyata töhfə vermək.

## 3. Proqramın prinsipləri:

Proqramla nəzərdə tutulmuş islahatlar aşağıdakı prinsiplərlə həyata keçiriləcəkdir:

**3.1.** Rəqəmsal gömrük sistemi vasitəsilə vahid yanaşma qaydasında idarə edilən gömrük inzibatçılığı sahibkar və vətəndaş məmnuniyyətinə xidmət edəcəkdir;

**3.2.** Gömrük inzibatçılığını idarə etmək üçün müasir təfəkkürlü peşəkar kadr potensialı yaradılacaq, onların əməyi nəticəyə yönəlik göstəricilərlə qiymətləndiriləcəkdir;

**3.3.** Dövlət Gömrük Komitəsində dəqiq səlahiyyət hədləri ilə çevik qərar qəbuletmə sistemini ehtiva edən müasir təşkilati-idarəetmə strukturu yaradılacaqdır;

**3.4.** Gömrük qanunvericiliyinə könüllü riayətetmə mədəniyyətinin formalaşdırılması hərtərəfli təşviq ediləcəkdir;

**3.5.** Beynəlxalq təşkilatlar və tərəfdaş ölkələrlə ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq ölkənin strateji və geosiyasi maraqlarına uyğun qarşılıqlı faydalı əsasda həyata keçiriləcəkdir.

# II. Yeni çağırışlara adekvat gömrük sistemi

İkinci Qarabağ Müharibəsi zəfərindən yaranan böyük geosiyasi və iqtisadi imkanların, müasir dövrdə baş verən qlobal dəyişikliklərin ölkəmizin xarici ticarət əlaqələrinə və tranzit imkanlarına etdiyi təsir gömrük orqanlarından çevik və müasir çağırışlara cavab verən həllər tələb edir. Bu prosesdə iqtisadi mərkəzlərin coğrafiyası dəyişir, xarici iqtisadi əlaqələrdə e-ticarətin xüsusi çəkisi artır. Ənənəvi tərəfdaş ölkələrlə ticarətdə yaranan yeni imkanlar həm də yeni risklər yaradır. Bu ziddiyyətli iqtisadi platforma gömrük işinin təkmilləşdirilməsini və bütün təhdidlərə hazır olmağı tələb edir. İxracın, xüsusilə qeyri-neft sektorunun ixracının stimullaşdırılması, idxaləvəzedici məhsulların yerli istehsalının təşviq olunması, qanunvericiliklə gömrük orqanlarına həvalə edilmiş milli və iqtisadi təhlükəsizlik tədbirlərinin icrası gömrük orqanlarının üzərinə aşağıdakı yeni vəzifələrin yerinə yetirilməsi tələbini qoyur:

- ❑ Xarici ticarət iştirakçıları ilə əlaqələri vahid elektron platforma üzərindən təşkil etməklə gömrük xidmətlərinə əlçatanlığı əhəmiyyətli dərəcədə artırmaq;
- ❑ Xüsusi proqramlarla subyektə yönəlik risk təhlilini avtomatik həyata keçirmək, xarici ticarət iştirakçılarının risk profilini öncədən müəyyən etməklə gömrük rəsmiləşdirilməsini bu risk kateqoriyası üçün nəzərdə tutulmuş qayda və metodlarla həyata keçirmək;
- ❑ Ölkəmizin tranzit potensialının reallaşması üçün nəqliyyat və logistik infrastrukturun yenilənməsində yaxından iştirak etmək;
- ❑ Qeyri-kommersiya təyinatlı mallarla bağlı gömrük əməliyyatlarını optimallaşdırmaq, vətəndaş məmnuniyyətini azaldan neqativ halları aradan qaldırmaq;
- ❑ E-ticarətin inkişafına dəstək vermək (o cümlədən, ixracın elektron platformalar üzərindən tətbiqi);
- ❑ Smart (ağıllı) gömrük sərhəd buraxılış modellərinin tətbiq edilməsi imkanlarını araşdırmaq;
- ❑ Gömrük ödənişlərinin avtomatlaşdırılması, gömrük borcunun vaxtında ödənilməsi və hesabatlılığı üçün vahid sistem yaratmaq;

- Gömrük qanunvericiliyinə könüllü riayət edən xarici ticarət iştirakçıları üçün üstün hüquqları ehtiva edən mexanizmlər yaratmaq;
- Korrupsiyanı istisna edən şərait yaratmaq, cinayət tərkibli əməllərdən çəkinməyə sövq edən, dürüstlüyü təbliğ edən təlim və maarifləndirici tədbirlər həyata keçirmək;
- İkitərəfli və çoxtərəfli beynəlxalq gömrük əməkdaşlığını genişləndirmək, qlobal təcrübənin öyrənilməsini və tətbiq edilməsini təmin etmək.

## III. Müasir gömrük inzibatçılığı

### 4. Gömrük işinin mərhələləri:

**4.1.** **Sərhədə qədər** təqdim edilən ilkin məlumatların risk profilləri üzrə emalı mərhələsi;

**4.2.** Şəxslərin, malların və nəqliyyat vasitələrinin (o cümlədən, tranzit) **sərhəd keçidi** mərhələsi;

**4.3.** Çatdırılma, bəyanetmə və risk əsaslı **sənədli təftiş** mərhələsi;

**4.4.** Malların eyniləşdirilməsi, **gömrük baxışı və buraxılışı** (o cümlədən, şərti buraxılış) mərhələsi;

**4.5.** Malların buraxılışından sonra **post-audit** mərhələsi (DGK haqqında Əsasnamənin 4.1.6. bəndi)

### 5. Gömrük inzibatçılığının tərkib elementləri:

**5.1. Risk inzibatçılığı** – Mallar və nəqliyyat vasitələri barədə məlumatın gömrük ərazisinə daxil olanadək emalı və onların risk profilləri üzrə avtomatik təsnifləşdirilməsi, üstün təsnifat qrupuna aid edilən nəqliyyat vasitələrinin sürətli sərhəd keçidinin və üstün hüquqla gömrük rəsmiləşdirilməsinin təmin edilməsi;

**5.2. Hüquq-mühafizə inzibatçılığı** – Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, silahların, ozondağıdıcı maddələrin, mədəni, tarixi və arxeoloji sərvətlərin, əqli mülkiyyət hüquqlarının obyektlərinin, kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin, milli maraqlarımıza təhdid yaradan təbliğat və təşviqat materiallarının, habelə valyuta sərvətlərinin gömrük sərhədindən qanunsuz keçirilməsinin qarşısının alınmasının təmin edilməsi;

**5.3. İqtisadi təhlükəsizlik inzibatçılığı** – Yerli istehsalçıların mənafelərinin və daxili bazarın qorunması, idxaləvəzedici malların yerli istehsalının stimullaşdırılması, ərzaq ehtiyatlarının təmin olunması üzrə ticarət tədbirləri siyasətinin yerinə yetirilməsinin və büdcə daxilolmalarında gömrük ödənişlərinin dayanıqlılığının təmin edilməsi;

**5.4. İnsan resursları inzibatçılığı** – Komanda ruhunu, dürüstlüyü və nəticəyönümlü fəaliyyəti təşviq edən, karyera yüksəlişi üçün motivasiya parametrlərini müəyyən edən, əməyin göstəricilərlə qiymətləndirilməsinə imkan verən şəffaf işə qəbul sisteminin yaradılması;

**5.5. İKT inzibatçılığı** – İnformasiya-kommunikasiya sistemlərinin müasir texnoloji həllər üzərində qurulması, gömrük inzibatçılığının rəqəmsal transformasiyası, kibertəhdidlərə qarşı müasir müdafiə həllərindən istifadə edilməsi, qəza-bərpa planlarının işlənib hazırlanması.

## IV. Dövlət Gömrük Komitəsinin Strateji Hədəfləri

Ölkəmizdə həyata keçirilən irimiqyaslı iqtisadi islahatlarda Dövlət Gömrük Komitəsinə həvalə edilmiş vəzifələrin vaxtında və keyfiyyətlə icrasına nail olmaq məqsədilə aşağıdakı strateji hədəflər müəyyən edilmişdir:

- **Gömrük orqanlarının fəaliyyətində şəffaflıq səviyyəsinin yüksəldilməsi;**
- **Sahibkarlıq subyektlərinin, vətəndaşların və gömrük əməkdaşlarının məmnuniyyəti;**
- **Büdcə daxilolmalarında gömrük ödənişlərinin dayanıqlılığı;**
- **Rəqəmsal gömrük sisteminin yaradılması;**
- **Güclü və güvənli hüquq-mühafizə tədbirləri.**

## V. Gömrük inzibatçılığında aşkar edilmiş həlli vacib məsələlər

1. Gömrük dəyərinin müəyyən edilməsi ilə bağlı məsələlər
2. Gömrük rüsum dərəcələrinin və gömrük yığımlarının tətbiqi, malların təsnifatlandırılması ilə bağlı məsələlər
3. Sərhəd keçid prosesləri üzrə:
   - 3.1. Nəqliyyat vasitələri və kommersiya təyinatlı mallarla bağlı sərhəd keçid məsələləri
   - 3.2. Fiziki şəxslərin və onlara məxsus qeyri-kommersiya təyinatlı malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi və rəsmiləşdirilməsi, o cümlədən beynəlxalq poçt göndərişləri və e-ticarətlə bağlı məsələlər
4. Gömrük rəsmiləşdirilməsinin aidiyyəti ərazi gömrük orqanları üzrə bölgüsü ilə bağlı məsələlər
5. Gömrük qanunvericiliyinin tətbiqi ilə bağlı məsələlər
6. Xarici tərəfdaşlar və digər qurumlarla məlumat mübadiləsi və koordinasiya ilə bağlı məsələlər
7. Şəxslərlə əlaqələrin idarə edilməsi (CRM) ilə bağlı məsələlər
8. Səlahiyyətlər və iş yükünün bölgüsü ilə bağlı məsələlər
9. Elektron xidmətlərin təkmilləşdirilməsi ilə bağlı məsələlər
10. Gömrük əməliyyatları üzrə şəxsi uçot vərəqəsinin olmaması ilə bağlı məsələlər
11. Gömrük rəsmiləşdirilməsinin biznes proseslərinin və xüsusi gömrük prosedurlarının (saxlanc, daxildə emal, müvəqqəti idxal) təkmilləşdirilməsi ilə bağlı məsələlər
12. Gömrük təmsilçiləri və anbarlarla bağlı məsələlər
13. Əsas fəaliyyət göstəriciləri (ƏFG) ilə bağlı məsələlər
14. Könüllü riayətetmə və ticarət-təchizat zəncirinin təhlükəsizliyi (Səlahiyyətli İqtisadi Operatorlar, Məcburi qərarlar) ilə bağlı məsələlər
15. İnzibati və hüquqi tədbirlərin icrası (ixrac olunan mallar müqabilində əldə olunmuş valyuta sərvətlərinin ölkəyə gətirilməməsi və s.) ilə bağlı məsələlər

## VI. Məsələlərin həllinə görə təsnifatı

TƏTBİQİ / TƏSİRİ

| TƏTBİQİ \ TƏSİRİ | Kiçik | Böyük |
|---|---|---|
| Çətin | - Xarici tərəfdaşlar və digər qurumlarla məlumat mübadiləsi və koordinasiyası ilə bağlı məsələlər<br>- Elektron xidmətlərin təkmilləşdirilməsi ilə bağlı məsələlər | - Gömrük dəyərinin müəyyən edilməsi ilə bağlı məsələlər<br>- Gömrük rüsum dərəcələrinin və gömrük yığımlarının tətbiqi, malların təsnifatlandırılması ilə bağlı məsələlər<br>- Beynəlxalq poçt göndərişləri və e-ticarətlə bağlı məsələlər<br>- Gömrük əməliyyatları üzrə şəxsi uçot vərəqəsinin olmaması (malların sərbəst buraxılışına gömrük ödənişlərinin xəzinə orqanlarında təsdiqindən sonra icazə verilməsi) |
| Asan | - Gömrük təmsilçiləri və anbarlarla bağlı məsələlər<br>- Könüllü riayətetmə və ticarət-təchizat zəncirinin təhlükəsizliyi (SİO və Məcburi qərarlar)<br>- Nəqliyyat vasitələri və kommersiya təyinatlı mallar ilə bağlı sərhəd keçid məsələləri<br>- İnzibati və hüquqi tədbirlərin (o cümlədən, konsiq-nasiya ixracı) ilə bağlı məsələlər | - Gömrük rəsmiləşdirilməsinin aidiyyəti ərazi gömrük orqanları üzrə bölgüsü ilə bağlı məsələlər<br>- Gömrük qanunvericiliyinin tətbiqi ilə bağlı məsələlər<br>- Şəxslərlə əlaqələrin idarə edilməsi (CRM) ilə bağlı məsələlər<br>- Gömrük rəsmiləşdirilməsinin biznes proseslərinin və xüsusi gömrük prosedurlarının (saxlanc, daxildə emal, müvəqqəti idxal) təkmilləşdirilməsi ilə bağlı məsələlər<br>- ƏFG – Əsas fəaliyyət göstəriciləri (KPİ) |

## VII. Məsələlərin gömrük mərhələlərinə aidiyyəti üzrə təsnifatı

| MƏRHƏLƏLƏR / MƏSƏLƏLƏR | Sərhədə qədər məlumatın risk profilləri üzrə emalı mərhələsi | Malların və nəqliyyat vasitələrinin sərhəd keçidi mərhələsi | Çatdırılma, bəyanetmə və risk əsaslı sənədli təftiş mərhələsi | Mal eyniləşdirilməsi, gömrük baxışı və buraxılışı mərhələsi | Malların buraxılışından sonra post-audit mərhələsi |
|---|---|---|---|---|---|
| 1. Gömrük dəyərinin müəyyən edilməsi ilə bağlı məsələlər | | | ● | ● | ● |
| 2. Rüsum dərəcələrinin və gömrük yığımlarının tətbiqi, malların təsnifatlandırılması ilə bağlı məsələlər | | | ● | ● | |
| 3. Sərhəd keçid proseslərinin təkmilləşdirilməsi:<br>3.1. Nəqliyyat vasitələri və kommersiya təyinatlı mallar ilə bağlı sərhəd keçid məsələləri | ● | ● | | | |
| 3.2. Fiziki şəxslərin və onlara məxsus qeyri-kommersiya təyinatlı malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi və rəsmiləşdirilməsi, o cümlədən beynəlxalq poçt göndərişləri və e-ticarətlə bağlı məsələlər | | ● | ● | | |
| 4. Gömrük rəsmiləşdirilməsinin ərazi gömrük orqanları üzrə bölgüsü ilə bağlı məsələlər | | ● | ● | | |
| 5. Gömrük qanunvericiliyinin tətbiqi ilə bağlı məsələlər | | ● | ● | ● | ● |
| 6. Xarici tərəfdaşlar və digər dövlət qurumlarla məlumat mübadiləsi və koordinasiya ilə bağlı məsələlər | ● | ● | ● | ● | ● |
| 7. Şəxslərlə əlaqələrin idarə edilməsi (CRM) ilə bağlı məsələlər | | ● | ● | ● | ● |
| 8. Səlahiyyətlər və iş yükünün bölgüsü ilə bağlı məsələlər | | ● | ● | ● | ● |
| 9. Elektron xidmətlərin təkmilləşdirilməsi ilə bağlı məsələlər | ● | ● | ● | ● | ● |
| 10. Gömrük əməliyyatları üzrə şəxsi uçot vərəqəsinin olmaması ilə bağlı məsələlər | ● | | ● | | ● |
| 11. Gömrük rəsmiləşdirilməsinin biznes proseslərinin və xüsusi gömrük prosedurlarının (saxlanc, daxildə emal) təkmilləşdirilməsi ilə bağlı məsələlər | ● | | ● | ● | |
| 12. Gömrük təmsilçiləri və anbarlarla bağlı məsələlər | ● | ● | ● | ● | |
| 13. Əsas fəaliyyət göstəriciləri (ƏFG) ilə bağlı məsələlər | | ● | ● | ● | ● |
| 14. Könüllü riayətetmə və ticarət-təchizat zəncirinin təhlükəsizliyi (SİO, Məcburi qərarlar) | ● | ● | ● | ● | ● |
| 15. İnzibati və hüquqi tədbirlərin icrası (ixrac olunan mallar müqabilində əldə olunmuş valyuta sərvətlərinin ölkəyə gətirilməməsi və s.) ilə bağlı məsələlər | | ● | ● | ● | |

# GÖMRÜK XİDMƏTİNİN
# FƏALİYYƏT PROQRAMI ÜZRƏ
# TƏDBİRLƏR

## İXTİSARLAR:

**GNTTABİ** - Gömrük Nəzarətinin Təşkili və Ticarətin Asanlaşdırılması Baş İdarəsi
**GRİABİ** - Gömrük Risklərinin İdarəolunması və Audit Baş İdarəsi
**GSBMİTBİ** - Gömrük Sərhəd Buraxılış Məntəqələrinin İşinin Təşkili Baş İdarəsi
**GTTÖBİ** - Gömrük Tariflərinin Tənzimlənməsi və Ödənişlər Baş İdarəsi
**TİSBİ** - Texnoloji İnnovasiyalar və Statistika Baş İdarəsi
**ƏİBİ** - Əməliyyat - İstintaq Baş İdarəsi
**SİATİ** - Sosial İnnovasiyalar və Analitik Təhlil İdarəsi
**HTİ** - Hüquqi Təminat İdarəsi
**MTİ** - Maliyyə və Təchizat İdarəsi
**MİƏİ** - Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi
**BƏİ** - Beynəlxalq Əməkdaşlıq İdarəsi
**DTİ** - Daxili Təhlükəsizlik İdarəsi
**İİİ** - İnfrastrukturun İnkişafı İdarəsi
**İİTİ** - İnzibati İdarəetmənin Təşkili İdarəsi
**İRİ** - İnsan Resursları İdarəsi
**DGKA** - Dövlət Gömrük Komitəsinin Akademiyası
**MGEİ** - Mərkəzi Gömrük Ekspertizası İdarəsi
**BBGİ** - Bakı Baş Gömrük İdarəsi
**SBGİ** - Sumqayıt Baş Gömrük İdarəsi
**CƏBGİ** - Cənub Ərazi Baş Gömrük İdarəsi
**QƏBGİ** - Qərb Ərazi Baş Gömrük İdarəsi
**ŞƏBGİ** - Şimal Ərazi Baş Gömrük İdarəsi
**AMBGİ** - Aksizli Mallar üzrə Baş Gömrük İdarəsi
**HNBGİ** - Hava Nəqliyyatında Baş Gömrük İdarəsi
**ERDNBGİ** - Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsi
VAİS - Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi
GSBM - Gömrük sərhəd buraxılış məntəqələri
XTİ - Xarici Ticarət İştirakçısı
ƏİGO - Ərazi və ixtisaslaşdırılmış gömrük orqanları

## Qrup 1 (gömrük ödənişləri, gömrük rəsmiləşdirilməsi, gömrük borcları məsələləri):

**1. Gömrük dəyərinin müəyyən edilməsi ilə bağlı məsələlər**
**2. Gömrük rüsum dərəcələrinin və gömrük yığımlarının tətbiqi və malların təsnifatlandırılması ilə bağlı məsələlər**
**10. Gömrük əməliyyatları üzrə şəxsi uçot vərəqəsinin olmaması ilə bağlı məsələlər**

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| **1. Gömrük dəyərinin müəyyən edilməsi ilə bağlı məsələlər** | | | | | |
| **1.1** Gömrük dəyəri ilə bağlı mübahisələrin nəqliyyat vasitələrinin boşdayanmasına və sahibkarların əlavə xərclərinin yaranmasına səbəb olması | **1.1.1.** "Gömrük tarifi haqqında" Qanuna müvafiq dəyişiklik edilməklə XTİ-lər tərəfindən təqdim edilən təminat əsasında malların buraxılışına şəraitin yaradılması. Bəyan edilmiş malın gömrük dəyərinin dəqiqləşdirilməsi zərurəti yarandıqda gömrük orqanına təqdim edilən bəyannamədə hesablanmış gömrük ödənişlərinin ödənilməsi və gömrük orqanı tərəfindən təqdim olunmuş bildirişdəki düzəlişlərin edilməsi nəticəsində yarana biləcək əlavə gömrük borcuna görə Gömrük Məcəlləsində nəzərdə tutulan təminatların az riskli növlərindən istifadə etməklə malların buraxılışının həyata keçirilməsi (<u>İT həll üçün məsələyə dair texnoloji sxemi özündə əks etdirən Texniki Tapşırıq təqdim edilməlidir</u>). | XTİ-nin boş dayanmaya görə xərclərinin qarşısı alınacaq və şikayətlər azalacaq | **GTTÖBİ**<br>**GRİABİ**<br>**TİSBİ** | **31.12.2022** | Digər təminat növlərindən istifadə üçün müraciətlərin edilməsi ilə bağlı yarana biləcək risklər<br><br>**Qabaqlayıcı tədbir:**<br>AR Nazirlər Kabinetinin 286 saylı 03.10.2013-cü il tarixli Qərarının 14-cü maddəsinə əsasən tədbir görülməsi |
| | **1.1.2.** Şəxslər (etibarlı tərəfdaşlar) tərəfindən idxal edilən mallara münasibətdə 2 pilləli gömrük rəsmiləşdirilməsi təcrübəsinin və yaranmış gömrük borcunun təminat əsasında malların | **Xarici Ticarət İştirakçıları üçün:**<br>- Daha çevik gömrük rəsmiləşdirilməsi nəticəsində vaxt itkiləri azalacaq;<br>- Sahibkar məmnunluğu yüksələcək;<br>- Gömrük borcunun hesablanması və | **GTTÖBİ**<br>**GRİABİ**<br>**GNTTABİ**<br>**TİSBİ** | **31.12.2022** | Yaranmış gömrük borcunun vaxtında və tam həcmdə ödəniləcəyinə verilən |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| | buraxılışından sonra həyata keçirilməsi imkanının öyrənilməsi. | ödənilməsinin təmin edilməsi sahəsində neqativ hallar minimuma enəcək;<br>- Könüllü riayət mədəniyyətinin artırılmasına nail olunacaq.<br>**Dövlət Gömrük Komitəsi üçün:**<br>- Gömrük orqanlarının imici yüksələcək;<br>- Xarici ticarət iştirakçıları tərəfindən DGK-ya etimad artacaq;<br>- DGK-nın ticarətin asanlaşıdırılması ilə bağlı strateji yanaşmasının icrası təmin olunacaq. | | | təminat növü bağlı çətinliklər;<br><br>**Qabaqlayıcı tədbir:**<br>Təminatın ən az riskli sayılan növlərindən (bank qarantiyaları, avans və ya depozit) geniş istifadə olunması |
| **1.2.** Dəyər üzrə elektron bildirişlərin verilməməsi (dəyər artımı üzrə tələblərin şifahi ifadə olunması. Bildiriş təqdim etməmək üçün gömrük bəyannamələrinin başqa səbəblə gömrük təmsilçilərinə geri qaytarılması) | **1.2.1.** Dəyər üzrə yeni, elektron bildiriş formasının hazırlanması və tətbiqi (<u>İT həll üçün məsələyə dair texnoloji sxemi özündə əks etdirən Texniki Tapşırıq təqdim edilməlidir</u>).<br>**1.2.2.** Təqdim edilən bildirişlərdə gömrük dəyərinə təklif olunan düzəlişlərin hüquqi cəhətdən əsaslandırılması üçün "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən gömrük dəyərinin müəyyən edilməsi üsullarının izahedici qeydlərinin hazırlanması. | Dəyərə düzəlişə gömrük əməkdaşları məsuliyyətli yanaşacaq, gömrük bəyannamələrinin əsassız geri qaytarmalarının sayı azalacaq və geri qaytarmalar yalnız elektron bildiriş əsasında həyata keçiriləcək | **GTTÖBİ**<br>**GRİABİ**<br>**HTİ**<br>**TİSBİ** | **01.10.2022**<br><br>**31.12.2022** | Gömrük dəyəri üzrə düzəlişlərin əsaslandırıla bilməməsi səbəbindən riskli hesab edilən bəyannamələrin buraxılışının baş vermə ehtimalı<br>**Qabaqlayıcı tədbir:**<br>Dəyər düzəlişi üzrə təlimlərin keçirilməsi |
| **1.3.** VAİS üzərindən formalaşan minimal qiymətlərin tövsiyə xarakterli olmasına baxmayaraq sənəd məmuru tərəfindən imperativ qaydada tətbiq olunması | **1.3.1.** Malların risk əsaslı buraxılışının həyata keçirilməsi məqsədilə gömrük bəyannaməsinin 31-ci qrafasının (malların təsviri) doldurulması zamanı məcburi normaların (bu qrafada doldurulması mütləq olan bölmələrin) müəyyən edilməsi (<u>İT həll üçün məsələyə dair texnoloji sxemi özündə əks etdirən Texniki Tapşırıq təqdim edilməlidir</u>).<br>**1.3.2.** Hesabatlılıq təmin edildikdən sonra tətbiq edilən minimal tövsiyə qiymətlərinin malların fərdi parametrləri (mənşə və göndərən ölkəsi, | Geri qayıdan GB-lərin sayı və XTİ-nin əlavə xərcləri azalacaq, məmnuniyyət artacaq və malların eyniləşdirilməsi tədbirlərinin səmərəliliyi yüksələcəkdir | **GRİABİ**<br>**GTTÖBİ**<br>**TİSBİ** | **01.07.2023**<br><br><br><br><br>**01.08.2023** | Risk ehtimal olunmur |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| | sayı, çəkisi və s.) nəzərə alınmaqla formalaşdırılması (İT həll üçün məsələyə dair texnoloji sxemi özündə əks etdirən Texniki Tapşırıq təqdim edilməlidir) **(1.3.1. yarımbəndi icra edildikdən sonra)** | | | | |
| **1.4.** Malların gömrük dəyəri araşdırılarkən "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununun 16-cı maddəsindən irəli gələrək idxal olunan eyni və ya eynicinsli malların daxili bazarda satış qiymətləri barədə məlumatların çatışmazlığı | **Məlumatların əldə olunmasının Dövlət Vergi Xidməti ilə razılaşdırılması:**<br>**1.4.1.** Təqdim olunmuş **e-qaiməyə**, (həmçinin ödəmə mənbəyində tutulan vergi bəyannamələrinə) çıxış imkanının əldə edilməsi | Malların daxili bazarda satış dəyərinə, dəyərləndirilən malların satışı ilə əlaqədar alıcının birbaşa və ya dolayısı ilə ödəməli olduğu **royalti, lisenziya haqqı,** xarici daşıyıcıya ödənilən **yol xərci** və s. barədə məlumatlara real vaxt rejimində çıxış imkanı yaradılacaq və dəyərin çıxılması üsulu ilə gömrük dəyərinin müəyyən edilməsinə sərf edilən vaxt azalacaq | **GRİABİ**<br>**GTTÖBİ**<br>**TİSBİ** | **01.11.2022** | Risk ehtimal olunmur |
| | **1.4.2.** Topdan və pərakəndə satış fəaliyyəti ilə məşğul olan idxalatçıların (aylıq satış dövriyyəsinin 95%-dən artıq hissəsi təqdim edilən e-qaimələrdən formalaşan) siyahısının əldə olunması (İT həll üçün məsələyə dair texnoloji sxemi özündə əks etdirən Texniki Tapşırıq təqdim edilməlidir) | Topdan və pərakəndə satış fəaliyyəti ilə məşğul olan şəxslərin ticarət əməliyyatlarına elektron qaydada nəzarət imkanı mövcud olduğundan onlar tərəfindən idxal edilmiş malların rəsmiləşdirilməsi zamanı minimum nəzarət tədbirlərinin tətbiqinin mümkün olması | | **31.12.2022** | |
| **1.5.** Post-gömrük auditinin səmərəli tətbiq edilməməsi | Gömrük auditi sisteminin ÜGT standartlarına uyğun qurulması və əsas etibarı ilə kameral gömrük auditin tətbiqinin sürətləndirilməsi məqsədilə Gömrük Məcəlləsinə dəyişiklik edilməsi üçün qanun layihəsinin hazırlanması | Dəyər səbəbi ilə Gömrük-XTİ arasında olan mübahisələr həll olunacaq, boş dayanmaya görə əlavə xərclərin qarşısı alınacaq | **GRİABİ**<br>**GTTÖBİ**<br>**HTİ** | **31.12.2022** | Risk ehtimal olunmur |
| **2. Gömrük rüsum dərəcələrinin və gömrük yığımlarının tətbiqi, malların təsnifatlandırılması ilə bağlı məsələlər** | | | | | |
| **2.1.** MGEİ tərəfindən verilmiş rəylərin reyestrinin və vahid bazasının olmaması (bu | MGEİ tərəfindən verilmiş rəylərin elektron reyestri və vahid bazasının formalaşdırılması üzrə layihənin hazırlanması məqsədilə texniki | Sənəd məmuru tərəfindən əsassız MGEİ müraciətləri azalacaq və XTİ-nin əlavə xərci aradan qalxacaq | **GTTÖBİ**<br>**TİSBİ**<br>**MGEİ** | **01.11.2022** | Risk ehtimal olunmur |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| səbəbdən MGEİ-yə eyni predmetli təkrar müraciətlərin edilməsi) | tapşırığın hazırlanması (İT həll üçün məsələyə dair texnoloji sxemi özündə əks etdirən Texniki Tapşırıq təqdim edilməlidir) | | | | |
| **2.2.** Gömrük Məcəlləsinin 50-ci maddəsinə (Məcburi qərarlar) əsasən malların mənşə ölkəsi, XİF MN koduna və dəyərinə görə məcburi qərarların işlək olmaması | VAİS-ə inteqrasiya edilməklə məcburi qərarların verilməsi mexanizminin tətbiqinə başlanılması və Komitənin rəsmi internet səhifəsinə inteqrasiya edilməsi (İT həll üçün məsələyə dair texnoloji sxemi özündə əks etdirən Texniki Tapşırıq təqdim edilməlidir) | XTİ-lər rəsmiləşdirilmə mərhələsindən öncə malın XİF MN üzrə kodunu əldə edəcək və gömrük xərclərinin hesablanması və sürətli rəsmiləşdirilmə imkanı yaradılacaq | **GNTTABİ**<br>**GTTÖBİ**<br>**GRİABİ**<br>**TİSBİ**<br>**MGEİ** | **01.11.2022** | Təqdim edilimiş sənədə əsasən verilmiş qərarla idxal edilən mallar arasında XİFMN kod üzrə yarana biləcək fərq **Qabaqlayıcı tədbir:** Eyniləşdirilmə tədbir-lərinin gücləndirilməsi |
| **2.3.** ÜGT-nin Harmonikləş-dirilmiş Sisteminin 2022-ci il variantının İzahnaməsinin olmaması | ÜGT-nın malların təsviri və kodlaşdırılması üzrə Harmonik Sisteminin ingilis və rus dillərində İzahnaməsinin ictimaiyyətə əlçatanlılığının təmin edilməsi üçün Komitənin rəsmi internet saytında yerləşdirilməsi və malların rəsmiləşdirilməsi zamanı yaranan mübahisələrdə tətbiq edilməsi məqsədilə müvafiq qanunvericilik aktlarında dəyişikliklərin edilməsi | Sənəd məmuru tərəfindən verilən qərarın əsaslandırılması üçün əlavə kömək olacaq və MGEİ-yə edilən müraciətlərin sayı azalacaq, yaranan mübahisələr hüquqi müstəvidə çevik həll ediləcək | **HTİ**<br>**GTTÖBİ**<br>**TİSBİ**<br>**MGEİ** | **01.10.2022** | Risk ehtimal olunmur |
| **2.4.** Azərbaycan Respublika-sının Vergi Məcəlləsinin 164-cü vergi ödəməkdən azad edilmə maddəsində ƏDV-dən azad edilən mallar XİFMN kodları ilə deyil, yalnız adları ilə qeyd olunduğundan təcrübədə həmin malların konkret mal qrupuna aid edilməsi və eyniləşdirilməsi üzrə uyğunsuzluqların yaranması | Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 164-cü maddəsində konkret mallara münasibətdə verilən azadolmaları əhatə edən təkliflərin hazırlanması (malların XİF MN kodlarla ifadə olunması) | Azadolmalar gömrük orqanlarının subyektiv qərarına əsasən deyil müvafiq icra hakimiyyəti orqanının təsdiq edəcəyi siyahıya əsasən tətbiq ediləcək. Nəticədə güzəştlərin tətbiqi zamanı eyni mallara münasibətdə vahid yanaşma tətbiq ediləcək. | **GTTÖBİ**<br>**GRİABİ**<br>**HTİ**<br>**MGEİ** | **01.09.2023** | Risk ehtimal olunmur |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| **2.5.** Malın XİF MN kodu ilə bağlı mübahisə yarandıqda malların buraxılmaması, nəqliyyat vasitələrinin boş dayanmasına görə sahibkarların əlavə xərclərinin yaranması | XTİ tərəfindən təminat verilməklə malların şəxsin anbarında saxlama hüququnun əldə edilməsi imkanının yaradılması. | XTİ-nin boş dayanmaya görə xərclərinin qarşısı alınacaq və şikayətlər azalacaq | **GTTÖBİ**<br>**HTİ**<br>**TİSBİ** | **31.12.2022** | Digər təminat növlərindən istifadəyə müraciətlər üzrə yarana biləcək risklər<br>**Qabaqlayıcı tədbir:**<br>AR Nazirlər Kabinetinin 286 saylı 03.10.2013-cü il tarixli Qərarının 14-cü maddəsinə əsasən tədbir görülməsi. |
| **10. Gömrük əməliyyatları üzrə şəxsi uçot vərəqəsinin olmaması ilə bağlı məsələlər** | | | | | |
| **10.1.** Vahid büdcə təsnifatı əsasında fəaliyyət göstərən mexanizmin olmaması (XTİ tərəfindən fərqli gömrük ödənişləri və gömrük orqanları üzrə yaranmış gömrük borcunun bu vəsaitlə ödəyə bilməməsi) | DGK-nın vahid xəzinə hesabının yaradılmasının Maliyyə Nazirliyi ilə razılaşdırılması və Komitənin yeni yaradılacaq sistemə inteqrasiyasının təmin edilməsi (<u>İT həll üçün məsələyə dair texnoloji sxemi özündə əks etdirən Texniki Tapşırıq təqdim edilməlidir</u>) | XTİ üçün daha əlverişli şərait yaradılacaq, XTİ-nin gömrük ödənişlərinin ödənilməsi və gömrük rəsmiləşdirilməsi ilə bağlı əlavə vaxt itkisi və izafi xərcləri aradan qalxacaq | **GTTÖBİ**<br>**TİSBİ** | **31.12.2022** | Risk ehtimal olunmur |
| **10.2.** Gömrük prosedurları üzrə gömrük ödənişlərinin avtomatlaşdırılmaması:<br>- XTİ tərəfindən təqdim edilmiş gömrük bəyannamələri üzrə yaranmış borcun və dəbbə pulunun ödənilməsinə və hesabatlılığına dair vahid sistemin olmaması; | **10.2.1.** Gömrük prosedurları üzrə yaranmış gömrük borcunun və dəbbə pulunun hesablanmasının avtomatlaşdırılması, bank qarantiyaları və digər təminat üsullarından istifadə etməklə gömrük ödənişləri üzrə vahid sistemin yaradılması məqsədilə alqoritmlərin müəyyən edilməsi və texnoloji ardıcıllığa uyğun olaraq tətbiq edilməsi üçün TİSBİ-yə texniki tapşırığın təqdim edilməsi (<u>İT həll üçün məsələyə dair texnoloji sxemi özündə əks etdirən Texniki Tapşırıq təqdim edilməlidir</u>)<br>**10.2.2.** Dəbbə pulunun hesablanması və alınmasına dair qanunvericilik bazasının təkmilləşdirilməsi; | XTİ-lərin şəxsi uçot vərəqəsi yaradılacaq, şəffaflıq təmin ediləcək və gömrük ödənişlərinə nəzarət gücləndiriləcək | **GTTÖBİ**<br>**GRİABİ**<br>**TİSBİ** | **01.07.2023** | Risk ehtimal olunmur |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| **10.3.** Müvəqqəti idxal xüsusi gömrük prosedurunun tətbiqi zamanı 3%-lik qismən ödənişlərin hesablanması ilə bağlı narazılıqların olması;<br>- Poçt göndərişləri üçün təyin olunmuş 300 ABŞ dolları limit həddini az miqdarda keçən hallarda tutulan gömrük yığımları ilə bağlı narazılıq-ların olması | **10.3.1.** Müvəqqəti idxal xüsusi gömrük proseduruna dair qanunvericilik bazasının təkmilləşdirilməsi;<br><br>**10.3.2.** Kiçik və orta biznes subyektlərinin inkişafı və poçt göndərişləri zamanı yaranan narazılıqların aradan qaldırılması məqsədilə gömrük dəyəri 1000 manatadək olan mallara tətbiq olunan gömrük yığımlarının məbləğinə yenidən baxılması. | Poçt göndərişləri üçün təyin olunmuş 300 ABŞ dolları limit həddini az miqdarda keçən hallarda tutulan gömrük yığımları ilə bağlı narazılıqlar aradan qalxacaq | **HTİ**<br>**GTTÖBİ**<br>**GRİABİ**<br>**TİSBİ** | **31.12.2022**<br><br>**31.12.2022** | |
| **10.4.** Gömrük daxilolmalaları barədə xəzinədarlıq orqanı tərəfindən yerli gömrük orqanlarına gündəlik təqdim edilən məlumatların əməkdaşlar tərəfindən manual qaydada VAİS-ə daxil edilməsi | **10.4.1.** Gömrük orqanları üçün vahid hesabın yaradılması məsələsinin və online inteqrasiyanın əlaqəli qurumlarla razılaşdırılması;<br>**10.4.2.** Xəzinədarlıq orqanından daxil olmuş məlumatların avtomatik qaydada, şəxs amili olmadan VAİS-də təsdiqini tapması (İT həll üçün məsələyə dair texnoloji sxemi özündə əks etdirən Texniki Tapşırıq təqdim edilməlidir). | XTİ-nin əlavə vaxt itkisi və xərci aradan qalxacaq, şəxslərin həyata keçirdikləri gömrük ödənişlərinin VAİS-də dərhal təsdiqinə nail olunacaq və malların rəsmiləşdirilməsi və buraxılışı ilə bağlı gecikmələr aradan qalxacaq | **GTTÖBİ**<br>**GRİABİ**<br>**TİSBİ** | **01.07.2023** | Risk ehtimal olunmur |

Qrup rəhbəri: Tariyel Alverdiyev

Qrup üzvləri: Samir Əhədov, Vüqar İbrahimli, Faiq Orucov, Rəşad Babayev

## QRUP 2 (İT dəstək, İT təhlükəsizlik və inteqrasiya məsələləri):

### 6. Xarici tərəfdaşlar və digər qurumlarla məlumat mübadiləsi və koordinasiyası ilə bağlı məsələlər

### 9. Elektron xidmətlərin təkmilləşdirilməsi ilə bağlı məsələlər (Gömrük orqanlarında İT həllər tələb edən layihələr)

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| **6. Xarici tərəfdaşlar və digər qurumlarla məlumat mübadiləsi və koordinasiyası ilə bağlı məsələlər** | | | | | |
| **6.1** Dövlət Gömrük Komitəsinin xarici tərəfdaşları və digər aidiyyəti qurumlarla məlumat mübadiləsinin zəif olması | Əldə olunan məlumatların rəsmiləşdirmə prosesində səmərəli istifadə olunması mexanizmlərinin hazırlanması. İnteqrasiya olunmuş Dövlət qurumlarının və məlumat mübadiləsi aparılan xarici dövlətlərin əhatə dairəsinin genişləndirilməsi. | Məlumat mübadiləsi nəticəsində əldə edilən sənədlər lazımı qaydada istifadə olunacağı təqdirdə gömrük rəsmiləşməsinə sərf olunan vaxt azalacaq, eləcə də gömrük prosedurlarının icrası sürətlənəcək. | **TİSBİ**<br>**GNTTABİ**<br>**GSBMİTBİ**<br>**GTTÖBİ** | **Dəqiqləş-diriləcəkdir** | Xarici tərəfdaşlar və digər qurumlar tərəfindən məlumatların düzgün verilməməsi. Dövlət Gömrük Komitəsində, xarici tərəfdaşlarda və digər qurumlarda yarana biləcək texniki problemlər.<br><br>**Qabaqlayıcı tədbirlər:**<br>Məlumatların düzgünlüyünü yoxlamaq və texniki işlərin daim monitorinqini aparmaq |
| **6.2.** Dövlət Gömrük Komitəsinin rəsmi veb səhifəsində və elektron xidmətlər portalında onlayn məsləhət xidmətinin (Online Chat) işlək olmaması. | **6.2.1.** Komitənin rəsmi veb səhifəsində, elektron xidmətlər portalında və mobil tətbiqində xüsusi alqoritm əsaslı çat sisteminin tətbiqi. | Elektron gömrük xidmətləri ilə bağlı yaranan sualların operativ və yerində həll olunması təmin ediləcək və Komitəyə ünvanlanan rəsmi müraciətlərin sayı və gömrük əməkdaşlarının iş yükü azalacaq. | **TİSBİ**<br>**SİATİ** | **01.11.2022** | Risk ehtimal olunmur |
| | **6.2.2.** Komitənin rəsmi veb səhifəsində, elektron xidmətlər portalında və mobil tətbiqində FAQ (Frequently Asked | Çağrı mərkəzinə edilən zənglər azalacaq. | **TİSBİ**<br>**SİATİ** | **01.11.2022** | |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| | Questions) – tez-tez verilən suallar bölməsinin yaradılması. | | | | |
| **9. Elektron xidmətlərin təkmilləşdirilməsi ilə bağlı məsələlər** | | | | | |
| **9.1.** Proqram təminatlarının və İT infrastrukturun köhnəlməsi | Kibertəhlükəsizlik idarəsinin yaradılması üçün hüquqi əsasların hazırlanması. | Komitənin informasiya resurslarının və şəbəkə infrastrukturunun təhlükəsizliyinin daha səmərəli və müasir tələblərə cavab verəcək formada, həmçinin informasiyanın qanunvericilik aktlarına uyğun şəkildə qorunması təmin ediləcək. | **TİSBİ** | **Dəqiqləş-diriləcəkdir** | Yeni yaradılacaq hüquqi normativ aktların əvvəlkilərlə ziddiyyət təşkil etmə ehtimalı.<br><br>**Qabaqlayıcı tədbirlər:**<br>Normativ aktların uyğunlaşdırılmasını təmin etmək. |
| **9.2.** İT təhlükəsizliyi ilə bağlı müasir həllərə ehtiyacın olması, bu sahədə yeni peşəkar kadrların çatışmazlığı | Kibertəhlükəsizlik idarəsinin nəzdində "Kibertəhlükəsizlik Əməliyyatları Mərkəzi"nin yaradılması və peşəkar kadrların cəlb olunması. | "Kibertəhlükəsizlik Əməliyyatları Mərkəzi" vasitəsi ilə yeni növ kiber təhdidlər davamlı araşdırılacaq, proaktiv kibermüdafiə bacarıqları artırılaraq, insidentlərə müvafiq reaksiyaların verilməsi ilə informasiya sistemlərinin fasiləsiz fəaliyyətinin təşkili təmin olunacaq. | **TİSBİ** | **Dəqiqləş-diriləcəkdir** | Əmək bazarında peşəkar kadr çatışmazlığı |
| **9.3.** TIER III beynəlxalq sertifikatlı "DATA Mərkəzi"nin tələblərinə uyğun olaraq istismarın mümkünsüzlüyü problemi. | **9.3.1.** TIER III beynəlxalq sertifikatlı "DATA Mərkəzi"nin standartlara uyğun olaraq təşkilinin daimi təmini üçün "DATA Mərkəzi" idarəolunması şöbəsinin yaradılması. | Əsas və ehtiyat "DATA Mərkəzi"nin və onun struktur bölmələrində server və şəbəkə avadanlıqlarının arxitekturası işlənəcək, təhlükəsizliyin, dayanıqlı və fasiləsiz xidmət təmin olunacaq. | **TİSBİ** | **Dəqiqləş-diriləcəkdir** | Risk ehtimal olunmur |
| | **9.3.2.** Dövlət Gömrük Komitəsinin əsas və ehtiyat "DATA Mərkəzi"nin və Komitənin struktur bölmələrində | - Tam lisenziyalı mühit olacaq<br>- Komitənin kompüter və server avadanlıqları tam funksionallıqla | **TİSBİ** | **Dəqiqləş-diriləcəkdir** | Keçid zamanı məlumat itkisi, uyğunsuz proqram təminatının seçilməsi, maliyyə vəsaitlərin ayrılmaması, insan resurslarının olmaması. |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| | server və şəbəkə avadanlıqlarının arxitekturasının işlənməsi, təhlükəsizliyin təmin olunması və beynəlxalq standartlara uyğun optimallaşdırılması. | təchiz olunacaq, yeniləmələr (Update) əldə olunacaq<br>- Təhlükəsizlik təmin olunacaq<br>- Satıcı (vendor) tərəfindən ödənişsiz İT dəstək göstəriləcək<br>- Toplanan məlumat bazasının (sənədlərin surətləri, şəkillər) saxlanılması üçün reqlament müəyyən olunaraq – mövcud resursların səmərəli istifadəsi və əlavə maliyyə vəsaitlərə qənaət ediləcək<br>- "Açıq qaynaqlı" həllərdən istifadə edərək maliyyə vəsaitlərinə qənaət ediləcək | | | **Qabaqlayıcı tədbirlər:**<br>Qabaqcadan təhlil aparmaq, maliyyə məsələlərini qabaqcadan təmin etmək və kadr problemini həll etmək. |
| | **9.3.3.** Məlumat Bazasının arxitekturasının və gömrük xidmətinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminin (VAİS) müasir texnologiyalar əsasında yenidən qurulması. | **Məlumat Bazasının yenidən modelləşdirilməsi:**<br>Sistemin daha çevik işləməsini və statistik hesabatların sürətli alınmasını təmin edəcək.<br>**VAİS-in yeni texnologiyalar əsasında müasir arxitekturada proqramlaşdırılması:**<br>Mövcud çatışmazlıqlar həll olunacaq və istifadəçi rahatlığı təmin ediləcək. | **TİSBİ** | **Dəqiqləşdiriləcəkdir** | VAİS-in yeni interfeysinə əməkdaşların uyğunlaşması zaman ala bilər. Yeni VAİS-in gömrük orqanlarında mövcud biznes proseslərlə sinxronlaşmaması.<br><br>**Qabaqlayıcı tədbirlər:**<br>VAİS-in yeni interfeysinin təlimini keçirmək, video və PDF formatında istifadə qaydası hazırlamaq, mövcud biznes proseslərinə optimallaşdırmaq. |
| | **9.3.4.** "e.customs.gov.az" portalının və "Smart Customs' mobil tətbiqinin inkişaf etdirilməsi. | **"DATA WAREHOUSE" (məlumat anbarı) – məlumat idarəetmə sisteminin yaradılması:** | **TİSBİ** | **01.01.2023** | Yeni məhsullar və mövcud məhsulların yeniləmələri (update) haqqında zəruri məlumatın ictimaiyyətə çatdırılmaması. |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| | | - məlumatların analitik emalı və müvafiq əməkdaşlar üçün əlçatanlığı təmin ediləcək,<br>- siyahısı müəyyən edilmiş xidmətlərin sayı 30-a çatdırılacaq,<br>- fiziki, hüquqi və qeyri-rezident şəxslər üçün əməliyyatların rahatlığı təmin olunacaq,<br>- vətəndaşlar üçün ən çox istifadə olunan xidmətlərin mobil tətbiqdə yerləşdirilməsi, əlçatanlığı və rahatlığı təmin ediləcək. | | | Yeni məhsulların son istifadəçilər tərəfindən qəbul olunmaması.<br>**Qabaqlayıcı tədbirlər:**<br>Yeni məhsullar üçün video və PDF formatında istifadə qaydası hazırlamaq.<br>3D animasiya video çarxları hazırlamaq və sosial şəbəkələrində paylaşmaq. |
| **Gömrük orqanlarında İT həllər tələb edən layihələr** | | | | | |
| İT həllər tələb edən məsələlər. | Komitənin müvafiq struktur bölmələrindən İT həlli tələb edən layihələrin razılaşdırılmış texniki tapşırıq sənədlərini qəbul etdikdən sonra, layihənin TİSBİ tərəfindən icrasına başlanılması və sifarişçiyə təhvil verilməsi. | Yeni layihələr barədə Komitənin struktur bölmələri layihənin icrasında koordinasiyalı hərəkət edəcək və məlumatlı olacaq. Bu isə öz növbəsində İT həllərin keyfiyyətinə təsir edəcək. | **TİSBİ** | **Mütəmadi** | Komitənin İT həll sifariş edən struktur bölmələri ilə TİSBİ arasında qarşılıqlı əlaqələrin və koordinasiyanın olmaması.<br>**Qabaqlayıcı tədbirlər:**<br>Texniki Tapşırıqları TİSBİ-i ilə birlikdə hazırlamaq və koordinasiya işlərini həyata keçirmək |
| Gömrük rəsmiləşdirilməsi başa çatdıqdan sonra xarici ticarət iştirakçılarının əsaslı müraciəti əsasında gömrük bəyannamələrində düzəlişlər edilir | Rəsmiləşdirilmə başa çatdıqdan sonra gömrük bəyannamə-lərində düzəlişlərin edilməsinin qanuni əsasının hazırlanması (Gömrük Məcəlləsinə düzəliş layihəsinin hazırlanması və qəbul | Düzəlişlərin aparılmasının qanuni əsası olacaq. Statistikanın düzgün formalaşmasına səbəb olacaq. XTİ-lərin gömrük xidmətindən məmnuniyyəti artacaq<br>Gömrük bəyannamələrinin düzəliş prosesində lazımsız süründürməçilik | **TİSBİ**<br>**GTTÖBİ**<br>**GRİABİ** | **01.11.2022** | Düzəlişlərin olunmasını təmin edən struktur bölmənin əməkdaşları tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, öncədən mal sahibi ilə razılaşaraq bəyannamədə sahibkarın qeyri-qanuni maraqlarına xidmət edən düzəlişlərin edilməsi. |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| (Təkcə 2022-ci ilin 7 ayı ərzində düzəlişlə bağlı 7500-dən çox sifariş verilmişdir) | edilməsi) üzrə müvafiq tədbirlərin həyata keçirilməsi. Gömrük bəyannamələrinə edilən düzəlişlərin edilməsinin yeni texnoloji sxeminin hazırlanması | halları aradan qalxacaq və TİSBİ-nin insan resurslarından səmərəli istifadə olunacaq | | | **Qabaqlayıcı tədbirlər:** GRİABİ, ƏİBİ və TİSBİ birlikdə çalışmaq. Düzəliş üzrə LOG-ları mütəmadi təhlil etmək |
| Gömrük rəsmiləşdirilməsi üçün təqdim olunan və gömrük rəsmiləşdirilməsi üzrə gömrük əməliyyatları başa çatdırılmayan bəyannamələrin sistemdə qalması | Gömrük rəsmiləşdirilməsi üçün təqdim olunan və gömrük rəsmiləşdirilməsi üzrə gömrük əməliyyatları başa çatdırılmayan bəyannamələrin sistemdən çıxarılması üçün meyarların və hüquqi bazanın yaradılmasına ehtiyacın müəyyən edilməsi | Gömrük bəyannamələri üzrə məlumat bazası təkmilləşdiriləcək, sorğu sistemi daha səmərəli çalışacaq | **TİSBİ**<br>**GNTTABİ** | **01.10.2022** | |

Qrup rəhbəri: Əli Əliyev

Qrup üzvləri: Rauf Quliyev, Eşqin Məmmədov, Əzizağa Əhmədov

## QRUP 3: (sərhəd keçidi, risklərin idarə olunması, qərarqəbuletmə, rəsmiləşdirməyə aid məsələlər)

### 3.1. Nəqliyyat vasitələri və kommersiya təyinatlı mallar ilə bağlı sərhəd keçid məsələləri
### 4. Gömrük rəsmiləşdirilməsinin aidiyyəti ərazi gömrük orqanları üzrə bölgüsü ilə bağlı məsələlər
### 11. Gömrük rəsmiləşdirilməsinin biznes proseslərinin və xüsusi gömrük prosedurlarının (saxlanc, daxildə emal, müvəqqəti idxal) təkmilləşdirilməsi ilə bağlı məsələlər

| MƏSƏLƏNİN TƏSVİRİ | TƏKLİF | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| **3.1. Nəqliyyat vasitələrinin və kommersiya təyinatlı mallar ilə bağlı sərhəd keçid məsələləri** | | | | | |
| Mövcud infrastrukturda buraxılış qabiliyyətinin məhdud olmasının, risk əsaslı yoxlamaların təşkil edilməməsinin (daxil olan bütün nəqliyyat vasitələri skan qurğusundan keçir) və sərhəd biznes proseslərinin təkmil olmamasının gömrük ərazisinə daxil olan mal və nəqliyyat vasitələrinin sərhəd buraxılış məntəqələrində əlavə vaxt itkisinə və məsrəflərinə səbəb olması | **Sərhəd biznes proseslərinin səmərəli qaydada təşkil edilməsi:** | "Qırmızı dəhliz" üzrə keçidin azaldılması, infrastrukturun təkmilləşdirilməsi və sərhəd biznes proseslərinin səmərəli qaydada təşkili gömrük ərazisinə daxil olan mallar və nəqliyyat vasitələrinin ümumi sərhəd keçidi ilə əlaqədar tətbiq olunan prosedur və əməliyyatlara sərf olunan vaxtın azaldılmasına səbəb olacaqdır. | | | İKT ilə bağlı texniki nasazlıq olduqda sərhəd keçid imkanlarının mümkün olmaması<br><br>**Qabaqlayıcı tədbir:** İKT-nın layihələndirilməsi zamanı fasiləsiz xidmət edən infrastrukturun yaradılması |
| | **3.1.1.** qısa idxal bəyannaməsində və gömrük bəyannamələrində (o cümlədən, beynəlxalq tranzit xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallara daxil olmaqla) təqdim olunan məlumatların tərkibinin təkmilləşdirilməsinə dair sənəd layihəsinin hazırlanması; | | **GSBMİTBİ**<br>**GNTTABİ**<br>**GRİABİ**<br>**GTTÖBİ**<br>**TİSBİ**<br>**HTİ** | **01.11.2022** | Risk ehtimal olunmur |
| | **3.1.2.** sərhəd prosedurlarını və əməliyyatlarını əhatə edən yeni Texnoloji Sxemin layihəsinin hazırlanması (sərhəd qeydiyyatının qısa idxal | | **GSBMİTBİ**<br>**GRİABİ**<br>**GTTÖBİ** | **01.11.2022** | Risk ehtimal olunmur |

| MƏSƏLƏNİN TƏSVİRİ | TƏKLİF | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| | bəyannaməsi əsasında aparılması, sərhəd buraxılış məntəqələrində həyata keçirilən prosedur və əməliyyatların, o cümlədən tranzit əməliyyatlarının hərəkət ardıcıllığının müəyyən edilməsi, eyni zamanda Ticarətin Asanlaşdırılması Mərkəzlərində həyata keçirilən əməliyyatların mexanizminin formalaşdırılması); | | **GNTTABİ**<br>**TİSBİ**<br>**HTİ** | | |
| | **3.1.3.** gömrük sərhəd buraxılış məntəqələrində sərhəd sığorta müqaviləsinin öncədən də bağlanması məsələsinin aidiyyəti qurumlarla razılaşdırılması; | | **GSBMİTBİ**<br>**GTTÖBİ**<br>**TİSBİ** | **01.10.2022** | Risk ehtimal olunmur |
| | **3.1.4.** tərəzi və dayanacaq ödənişlərinin gömrük sərhəd buraxılış məntəqəsindən kənarda ödənilməsi ilə əlaqədar texniki tapşırığın hazırlanması (İT həll üçün məsələyə dair texnoloji sxemi özündə əks etdirən Texniki Tapşırıq təqdim edilməlidir); | | **GSBMİTBİ**<br>**GTTÖBİ**<br>**TİSBİ**<br>**HTİ**<br>**GSBM** | **15.09.2022** | Risk ehtimal olunmur |
| | **3.1.5.** sərhəddə icazə blanklarının verilməsi və yol vergilərinin optimallaşdırılması ilə əlaqədar mövcud qanunvericiliyə təklif edilmiş dəyişikliklərlə bağlı sənəd layihələrinin aidiyyəti qurumlarla razılaşdırılması prosesinin sürətləndirilməsi; | | **GTTÖBİ**<br>**GSBMİTBİ**<br>**TİSBİ**<br>**HTİ**<br>**GSBM** | **Dəqiqləşdiriləcəkdir** | Risk ehtimal olunmur |
| | **3.1.6.** tranzit bəyannamələrinin mallar və nəqliyyat vasitələri gömrük ərazisinə gətirilməzdən əvvəl tərtib olunaraq təqdim edilməsi mexanizminin geniş şəkildə təşviq edilməsi ("WEB – Tranzit" platformasının istifadəyə verilməsi ilə bağlı işlərin tamamlanması) (İT həll üçün məsələyə dair texnoloji sxemi özündə əks etdirən Texniki Tapşırıq təqdim edilməlidir). | | **GSBMİTBİ**<br>**GNTTABİ**<br>**GTTÖBİ**<br>**TİSBİ**<br>**HTİ**<br>**GSBM** | **01.11.2022** | İKT ilə bağlı nasazlıq olduqda sərhəd keçidinin mümkün olmaması<br>**Qabaqlayıcı tədbir:**<br>İKT-nın layihələndirilməsi zamanı fasiləsiz xidmət edən infrastrukturun yaradılması |
| | **Mövcud infrastrukturun təkmilləşdirilməsi:** | | | | |
| | **3.1.7.** nəqliyyat vasitələrinin risk dəhlizləri üzrə istiqamətləndirilməsi üçün İKT əsaslı elektron növbənin təşkil edilməsi. | | **GRİABİ**<br>**GSBMİTBİ**<br>**GNTTABİ**<br>**TİSBİ** | **01.12.2022** | Risk ehtimal olunmur |

| MƏSƏLƏNİN TƏSVİRİ | TƏKLİF | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| | | | GSBM | | |
| | **Risk əsaslı yoxlamaların aparılmasının təşkil edilməsi:** | | | | |
| | **3.1.8.** Sərhəd əməliyyatları üzrə risklərin idarəetmə sisteminə dair mexanizmin müəyyən edilməsi (<u>İT həll üçün məsələyə dair texnoloji sxemi özündə əks etdirən Texniki Tapşırıq təqdim edilməlidir</u>); | | **GRİABİ**<br>**TİSBİ** | **01.10.2022** | |
| **4. Gömrük rəsmiləşdirilməsinin aidiyyəti ərazi gömrük orqanları üzrə bölgüsü ilə bağlı məsələlər** | | | | | |
| **4.1.** Şəxslərin istəyi əsasında rəsmiləşdirmə gömrük orqanının seçmə imkanının məhdud olması. | **4.1.1.** Gömrük rəsmiləşdirilmə prosesinin şəxsin seçimi əsasında gömrük ərazisinin istənilən yerində həyata keçirilməsi üçün imkanların yaradılması məqsədilə gömrük rəsmiləşdirilməsi ilə əlaqədar spesifik xüsusiyyətləri özündə ehtiva edən standartların qəbul edilməsi üçün Komitə Sədrinin Sərəncam layihəsinin hazırlanması;<br>**4.1.2.** Ticarətin Asanlaşdırılması Mərkəzlərin fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi üzrə təkliflərin hazırlanması. | Ölkə üzrə istənilən gömrük orqanında gömrük rəsmiləşdirilməsini həyata keçirilməsi gömrük orqanlarında gömrük bəyannamələrin buraxılması prosesinin optimallaşdıraraq vaxt göstəricilərinin azaldılmasına və şəxslərin ümumi məsrəflərinə qənaət edilməsinə və gömrük orqanlarının resurslarından daha səmərəli qaydada istifadənin təmin edilməsinə səbəb olacaqdır | **GSBMİTBİ**<br>**GNTTABİ**<br>**GTTÖBİ**<br>**TİSBİ**<br>**HTİ**<br>**GSBM** | **01.11.2022** | "Terminallar"ın gəlirinin azalması<br><br>**Qabaqlayıcı tədbir:** Əvvəlcədən sahibləri ilə müzakirələrin aparılması |
| **11. Gömrük rəsmiləşdirilməsinin biznes proseslərinin və xüsusi gömrük prosedurlarının (saxlanc, daxildə emal, müvəqqəti idxal) təkmilləşdirilməsi ilə bağlı məsələlər** | | | | | |
| **11.1.** Gömrük bəyannamələrinin rəsmiləşdirilməsinin elektron sistemdə hərəkət ardıcıllığının təkmil olmamasına, risk dəhlizlərinin səmərəli bölüşdürülməməsinə və gömrük auditi mexanizmlərindən məhdud sayda istifadə edilməsinə görə rəsmiləşdirmə | **11.1.1.** Gömrük bəyannamələrinin emalı üzrə risklərin idarəedilməsi sisteminin təkmilləşdirilməsi və yeni alqoritmlərin tətbiqi (<u>İT həll üçün məsələyə dair texnoloji sxemi özündə əks etdirən Texniki Tapşırıq təqdim edilməlidir</u>);<br>**11.1.2.** Gömrük auditinin tətbiq edilməsi (mavi dəhlizdən istifadə);<br>**11.1.3.** Gömrük bəyannaməsinin elektron sistemində hərəkət ardıcıllığı müəyyən edən yeni Texnoloji Sxemin layihəsinin hazırlanması. | Gömrük bəyannamələrinin rəsmiləşdirilməsinin elektron sistemdə hərəkət ardıcıllığını yenilənməsi, risklərin idarəolunması sisteminin zənginləşdirilməsi və gömrük auditi mexanizmlərin tətbiqi gömrük rəsmiləşdirmə prosesinə sərf olunan vaxtın azaldılmasına səbəb olacaqdır. | **GRİABİ**<br>**GNTTABİ**<br>**GTTÖBİ**<br>**TİSBİ**<br>**HTİ**<br>**ƏİGO** | **01.11.2022** | İKT nasaz vəziyyətə düşdükdə sərhəd keçid imkanların mümkün olmaması<br><br>**Qabaqlayıcı tədbir:** İKT-nın layihələndirilməsi zamanı fasiləsiz xidmət edən infrastrukturun yaradılması |

| MƏSƏLƏNİN TƏSVİRİ | TƏKLİF | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| prosesinə çox vaxtın sərf olunması. | | | | | |
| **11.2.** Ölkəyə gətirilən malların saxlanc anbarlarına yerləşdirilmək-lə üçüncü ölkələrə təkrar ixrac (re-export) edilməsinə gömrük orqanları tərəfin-dən icazə verilməməsi. | **11.2.1.** Gömrük anbarı xüsusi gömrük prosedurunun tətbiqinə icazə verilməsi;<br>**11.2.2.** Ölkəyə gətirilən malların üçüncü ölkələrə təkrar ixracı üçün şərtlərin sadələşdirilməsi. | İxracyönümlü və saxlanc əməliyyatlarında şəffaflığın artırılması ilə ölkənin regional logistik mərkəzə çevrilməsinə imkan yaradacaq. | **GRİABİ**<br>**GNTTABİ**<br>**GTTÖBİ**<br>**TİSBİ**<br>**HTİ**<br>**ƏİGO** | **01.11.2022** | |
| **11.3.** Daxildə emal xüsusi gömrük prosedurundan istifadənin şərtləri mürəkkəb olduğundan bu prosedurdan istifadə edilməsi aşağı səviyyədədir. | **11.3.1.** Daxildə emal xüsusi gömrük prosedurunun qanunvericilik bazasının və tətbiq prosesinin təkmilləşdirilməsi. | Daxildə emal xüsusi gömrük prosedurunun istifadə şərtlərinin sadələşdirilməsi vasitəsilə ixracyönümlü yerli istehsalın artırılması üçün şərait yaradılacaq. | **GNTTABİ**<br>**GTTÖBİ**<br>**GSBMİTBİ**<br>**MGEİ**<br>**HTİ** | **01.11.2022** | |
| **11.4.** Ölkəyə idxal edilən malların gömrük ərazisinə gətirilmədən öncə sərbəst dövriyyə gömrük proseduru altında yerləşdirilməsi üçün bəyan etmə imkanının olmaması. | **11.4.1.** Ölkəyə idxal edilən malların gömrük ərazisinə gətirilmədən öncə sərbəst dövriyyə gömrük proseduru altında yerləşdirilməsi üçün bəyan etmə imkanının yaradılmasına və gömrük ödənişlərinin öncədən həyata keçirilməsinə icazə verilməsi.<br>(İT həll üçün məsələyə dair texnoloji sxemi özündə əks etdirən Texniki Tapşırıq təqdim edilməlidir) | İdxalına icazə tələb edilən və ya gömrük eyniləşdirilməsi üçün xüsusi yanaşma tələb olunmayan hallarda ölkəyə idxal edilən mallar üçün öncədən bəyanetmə və gömrük ödənişlərinin öncədən ödənilməsi təmin ediləcək, sahibkarlıq subyektlərinin məmnunluğu artacaqdır. | **GNTTABİ**<br>**GTTÖBİ**<br>**GRİABİ**<br>**TİSBİ**<br>**HTİ** | **31.12.2022** | |

Qrup rəhbəri: Ziya Ağayev

Qrup üzvləri: Ceyhun Ağayev, Cavid Mirzəyev, Cəfər Quluzadə

## QRUP 4 (ticarətin asanlaşdırılması, təchizat-ticarət zəncirinin təhlükəsizliyi, könüllü riayətetmə)

### 12. Gömrük təmsilçiləri və anbarlarla bağlı məsələlər

### 14. Könüllü riayətetmə və çatdırılma zəncirinin təhlükəsizliyi (Səlahiyyətli İqtisadi Operatorlar, Məcburi qərarlar) ilə bağlı məsələlər

| MƏSƏLƏNİN TƏSVİRİ | TƏKLİF | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| **12. Gömrük təmsilçiləri və anbarlarla bağlı məsələlər** | | | | | |
| **12.1.** Gömrük təmsilçiliyinin tənzimləmə imkanlarının zəif olması. | Gömrük təmsilçiliyi sahəsində mövcud olan məlumat bazasının digər dövlət orqanlarının müvafiq məlumat bazaları ilə inteqrasiyasının təkmilləşdirilməsi:<br>• Daxili İşlər Nazirliyi – şəxslərin pasport məlumatları;<br>• Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi - əmək müqavilələri;<br>• Dövlət Vergi Xidməti – reyestrdən çıxarışlar.<br>(İT həll üçün məsələyə dair texnoloji sxemi özündə əks etdirən Texniki Tapşırıq təqdim edilməlidir) | Gömrük təmsilçiliyi ilə əlaqədar müraciətlərin qeydiyyatı və emalı zamanı şəxslər tərəfindən gömrük təmsilçiliyinin növündən asılı olaraq müraciət formasına əlavə edilməli 5-6 sənəd tələb edilir (şəxsiyyət vəsiqəsi, əmək müqaviləsi, hüquqi şəxsin dövlət qeydiyyatı haqqında çıxarış və s.). Gömrük təmsilçiliyi sahəsində mövcud olan məlumat bazasının digər dövlət orqanlarının müvafiq məlumat bazaları ilə məntiqi əlaqələndirilməsinin təkmilləşdirilməsi nəticəsində tələb edilən sənədlərin sayının 1-2 endirilməsinə nail olunacaqdır. | **GNTTABİ**<br>**TİSBİ** | **01.10.2022** | RİSK YOXDUR |
| **12.2.** Dolayı gömrük təmsilçiləri tərəfindən tərtib edilən gömrük bəyannamələrinin keyfiyyətinin aşağı olmasının və bu səbəbdən dəfələrlə geri qaytarılmasının gömrük rəsmiləşdirilmə prosesini ləngitməsi. | Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssisin fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı meyarların formalaşdırılması və təsdiq edilməsi, onların biliklərinin artırılması sahəsində ehtiyacların müəyyən edilməsi, onların göstərdikləri xidmətlərin keyfiyyət | Gömrük təmsilçilərinin fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı meyarların formalaşdırılması (geri qaytarılmış, düzəliş edilmiş GB-lərin payı, həmçinin protokollaşdırılan GB-lərin sayı və s.) gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssisin fəaliyyətinə nəzarət metodlarının tətbiqinə imkanlar yaradacaq və müvafiq tədbirlərin | **GNTTABİ** | **01.10.2022** | RİSK YOXDUR |

| MƏSƏLƏNİN TƏSVİRİ | TƏKLİF | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| | göstəriciləri üzrə daimi monitorinqin aparılması. | görülməsi üçün əsas olacaqdır. Bu da öz növbəsində GB-lərin tərtib edilməsi zamanı keyfiyyət göstəricilərinin artırılması, biznes subyektləri tərəfindən vaxt və xərc itkisinin aradan qaldırılması və gömrük orqanlarının iş prosesində işçi resurslarından daha səmərəli istifadə olunması ilə nəticələnəcəkdir. | | | |
| **12.3.** Sahibkarların müvəqqəti saxlanc və gömrük anbarları ilə bağlı əməliyyatların həyata keçirilməsində çətinliklərlə üzləşməsi (anbarların sayının kifayət qədər olmaması yüksək xidmət haqları və s.). | Gömrük orqanlarında açıq tipli müvəqqəti saxlanc və gömrük anbarlarının yaradılması və burada güzəştli saxlanc şəraitin təmin edilməsi mexanizminin işlənib hazırlanması, nəticəsi üzrə aidiyyəti işlərin həyata keçirilməsi. | Gömrük orqanlarında müvəqqəti saxlanc anbarlarının işinin təkmilləşdirilməsi və gömrük anbarlarının yaradılması saxlanc əməliyyatlarını sadələşdirəcək, gömrük nəzarətinin daha səmərəli həyata keçirilməsinə şərait yaradacaq, sahibkar məmnunluğunun artıracaq və onların əlavə xərclərini aradan qaldıracaqdır. | **GNTTABİ**<br>**GSBMİTBİ**<br>**TİSBİ**<br>**ƏİGO** | **30.11.2022** | RİSK YOXDUR |
| | Müvəqqəti saxlanc və gömrük anbarları sisteminin inkişaf etdirilməsi və anbarlardan istifadənin təşviq olunması. | Gömrük və müvəqqəti saxlanc anbarları sisteminin inkişaf etdirilməsi ölkəyə beynəlxalq miqyaslı şirkətlərin cəlb edilməsinə, gömrük anbarlarında emal imkanlarının yaradılması isə əlavə iş yerlərinin yaradılması və istehsal qabiliyyətinin artmasına gətirib çıxaracaqdır. | **GNTTABİ**<br>**GSBMİTBİ**<br>**TİSBİ**<br>**ƏİGO** | **Mütəmadi** | RİSK YOXDUR |
| **14. Könüllü riayətetmə və çatdırılma zəncirinin təhlükəsizliyi (Səlahiyyətli İqtisadi Operatorlar, Məcburi qərarlar) ilə bağlı məsələlər** | | | | | |
| **14.1.1.** Etibarlı tərəfdaş və könüllü riayət proqramlarının Ümumdünya Gömrük Təşkilatının Qlobal Ticarətin Asanlaşdırılması və Təhlükəsizliyinin Təmin Edilməsi Çərçivə Standartları və Ümumdünya Ticarət Təşkilatının Ticarətin Asanlaşdırılması Sazişi ilə təsbit edilmiş norma və tövsiyələrə | • Səlahiyyətli İqtisadi Operator proqramının Ümumdünya Gömrük Təşkilatının standartlarına uyğun olaraq işlək vəziyyətə gətirilməsi üçün aşağıdakıları əhatə edən işlərin həyata keçirilməsi:<br>• SİO-ların özünün qiymətləndirmə və validasiya formalarının beynəlxalq təcrübəyə və tövsiyələrə | Qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verən aşağı riskli sahibkarların əməliyyatlarının asanlaşdırılması istiqamətində səylər davam etdirilməlidir. SİO proqramının işə salınması könüllü əməletmənin təşviqinə, milli iqtisadi operatorların beynəlxalq müstəvidə sadələşdirilmələrdən bəhrələnməsinə və tanınmasına, həmçinin beynəlxalq ticarət | **GNTTABİ**<br>**GSBMİTBİ**<br>**GRİABİ**<br>**GTTÖBİ**<br>**ƏİBİ**<br>**TİSBİ**<br>**HTİ** | **01.10.2023** | RİSK YOXDUR |

| MƏSƏLƏNİN TƏSVİRİ | TƏKLİF | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| uyğun olmaması (qeyd olunan sahənin beynəlxalq standartlara cavab verməməsi və yalnız milli səviyyədə idxal-ixrac əməliyyat-larının inkişaf etdirilməsinə yönəlmiş olması) | uyğun işlənib hazırlanması; • SİO-lara dair üstünlükləri və onların fəaliyyətini tənzimləyən qaydaların işlənib hazırlanması. | zəncirinin təhlükəsizliyinin təmin edilməsi sahəsində geniş imkanlar yaradacaqdır. | | | |
| **14.1.2.** Tərkibində əqli mülkiyyət obyektləri olan malların gömrük xidmətində reyestrinin müasir tələblərə cavab verməməsinin reyestrdə olan mallara dair sənədlərin gömrük orqanları tərəfindən operativ yoxlanılması, pirat və ya kontrafakt malların buraxılışının dayandırılması üçün müvafiq qərarın qəbul edilməsində çətinliklərin yaranması (hazırda gömrük xidmətində tərkibində əqli mülkiyyət obyektləri olan malların reyestrinə 18 şirkətə məxsus 50-yə əmtəə nişanı daxil edilmişdir). | **14.1.2.1.** Tərkibində əqli mülkiyyət obyektləri olan malların elektron reyestrinin müasir tələblərə uyğun yaradılması və onun risklərin idarə edilməsi sistemi ilə inteqrasiyası; **14.1.2.2.** Tərkibində əqli mülkiyyət obyektləri olan malların gömrük orqanlarının elektron reyestrinə daxil edilməsi üçün elektron müraciət formasının yaradılması və elektron xidmətlər siyahısına daxil edilməsi (14.1.2.1. və 14.1.2.2. bəndlərinin İT həlli üçün məsələlərə dair texnoloji sxemi özündə əks etdirən Texniki Tapşırıq təqdim edilməlidir) | Tərkibində əqli mülkiyyət obyektləri olan malların elektron reyestrinin yaradılması gömrük orqanları tərəfindən gömrük sərhədindən keçirilən pirat və ya kontrafakt mallar üzərində gömrük nəzarətinin səmərəliliyini artıracaqdır. Əmtəə nişanlarının gömrük xidmətinin tərkibində əqli mülkiyyət obyektləri olan malların elektron reyestrinə daxil edilməsində sahibkarlarla kommunikasiyanı sadələşdirəcək və reyestrin məlumat zənginliyini artıracaqdır. | **GNTTABİ** **TİSBİ** **GRİABİ** | **01.06.2023** | RİSK YOXDUR |

Qrup rəhbəri: Ceyhun Nəcəfli

Qrup üzvləri: Elçin Rüstəmov, Mahmud Nuriyev, Rövşən Namazov

**QRUP 5** (hüquqi dəstək, idarəetmə sisteminin təkmilləşdirilməsi, səlahiyyət hədləri və məsuliyyət tədbirləri)

**5. Gömrük qanunvericiliyinin tətbiqi ilə bağlı məsələlər**

**8. Səlahiyyətlər və iş yükünün bölgüsü ilə bağlı məsələlər**

**15. İnzibati və hüquqi tədbirlərin icrası (ixrac olunan mallar müqabilində əldə olunmuş valyuta sərvətlərinin ölkəyə gətirilməməsi və s.) ilə bağlı məsələlər**

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| **5. Gömrük qanunvericiliyin tətbiqi ilə bağlı məsələlər** | | | | | |
| **5.1.** Gömrük qaydalarının tətbiqində subyektiv yanaşma halları olduğuna görə sahibkarların gömrük orqanında həddən artıq vaxt itirməsi, boşdayanma və üçüncü şəxslər qarşısında öhdəliyini yerinə yetirməməyə görə əlavə xərclər çəkməsi və öz biznes fəaliyyətini planlaşdıra bilməməsi. | **5.1.1.** Gömrük prosedurları və əməliyyatlarına icazənin verilməsi şərtlərinə uyğunluğun qiymətləndirilməsi metodikasının və qərarvermə mexanizminin hazırlanması, icazələrə baxılması işinin təkmilləşdirilməsi məqsədi ilə sərəncam layihəsinin hazırlanması | Gömrük rəsmiləşdirilməsi üçün sərf edilən müddət azalacaq, müvafiq prosedurlardan istifadə genişlənməklə şəffaflıq təmin ediləcək | **GNTTABİ**<br>**HTİ** | **01.10.2022** | İcazə tələb olunan prosedurlar üzrə formal tələblərə riayət edən şəxslərin sui-istifadə amilləri<br>**Qabaqlayıcı tədbirlər:**<br>Operativ nəzarət mexanizmlərinin tətbiq edilməsi |
| | **5.1.2.** Gömrük rəsmiləşdirilməsi və nəzarəti ilə əlaqədar bölmələrin ayrılıqda və birgə fəaliyyətinin dəqiq müəyyən edilməsi məqsədilə fəaliyyət xəritələrinin hazırlanması | Rəsmilədirmə və nəzarətin çevikliyi təmin ediləcək, peşəkar yanaşma ilə məmnunluq təmin ediləcək | **Rəsmiləşdirmə və nəzarətdə iştirak edən bütün bölmələr** | **Dəqiqləş-diriləcəkdir** | Risk ehtimal olunmur |
| | **5.1.3.** Kadrların uyğunluğunu təmin etməkdən ötrü ayrı-ayrı vəzifələrin ixtisas təsnifatı, kadrların hazırlığının fəaliyyət istiqamətinə uyğun təşkili məqsədi ilə proqramların hazırlanması | Peşəkar kadr korpusunun formalaşması və xidmətin keyfiyyətinin artmasına nail olunacaq | **İRİ**<br>**DGKA** | **01.11.2022** | Risk ehtimal olunmur |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| | **5.1.4.** İxtisasyönümlü tədris kataloqları hazırlanmaqla, qulluqda irəli çəkilmənin buradakı blok biliklərin yiyələnmə və digər (dil biliyi, ali təhsil səviyyəsi, fəaliyyətinin qiymətləndirilməsi) meyarlara əsaslanması qaydalarının müəyyən edilməsi | Özünü təhsil imkanları və ədalətli surətdə qulluqda irəli çəkilmə işçi məmnunluğu ilə xidmətdə peşəkarlığı artıracaqdır | | **01.11.2022** | |
| | **5.1.5.** İxtisas attestatı imtahanlarının keçirilməsinin DGK Akademiyasına həvalə edilməklə burada keçirilməsi və sistemli şəkildə təşkili. | Gömrük təmsilçiləri arasında haqlı narazılıq aradan qaldırılacaq və belə fəaliyyətlə məşğul olmaq imkanının əlçatanlığına nail olunacaq | **GNTTABİ**<br>**DGKA**<br>**İRİ** | **01.11.2022** | İxtisas attestatı almış şəxslərin sayında artım hesabına onlara nəzarətin əlavə resursa səbəb ola biləcəyi riski<br>**Qabaqlayıcı tədbirlər:**<br>Qanunvericilikdə attestat almış şəxslərin fəaliyyətinə nəzarət etməyə imkan verən dəyişikliklərin edilməsi |
| | **5.1.6.** Kütləvi informasiya vasitələrindən istifadə etməklə gömrük qaydalarının praktiki cəhətdən izahı məqsədi ilə videoçarxlar, izah mətnləri və s. materialların hazırlanması | Gömrük savadlılığı artacaq, gömrük orqanlarının fəaliyyəti barədə cəmiyyətdə əsassız ittihamlar azalacaq | **MiƏi** | **Mütəmadi** | Risk ehtimal olunmur |
| **8. Səlahiyyətlər və iş yükünün bölgüsü ilə bağlı məsələlər** | | | | | |
| **Səlahiyyətlər və iş yükü dəqiq müəyyən edilmədiyindən:**<br>**8.1.** işçilər, bəzi hallarda bütöv struktur bölmələr arasında konfliktin yaranması, | Çoxpilləli idarəetmə sistemindən azpilləli idarəetməyə keçidin uzlaşdırılması ilə Təşkilati-İdarəetmə Strukturunun yenidən qurulması<br><br>Eyni və oxşar səlahiyyətləri yerinə yetirən bölmələrin fəaliyyətinin optimallaşdırılması | Vəzifələrin icrası və funksiyaların həyata keçirilməsi optimallaşacaq, az resurs hesabına çox iş görmək mümkün olacaq | **Müvafiq bölmələrin rəyi nəzərə alınmaqla** | **Dəqiqləşdiriləcəkdir** | Risk ehtimal olunmur |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| **8.2.** iş prosesində gecikmə baş verməsi, **8.3.** mənfi və müsbət nəticələrin kimin payına aid edilə bilməməsi, **8.4.** İşçi və vətəndaş məmnunluğunda səviyyənin aşağı düşməsi, **8.5.** Sənəd dövriyyəsində lüzumsuz mərhələlərin sənəd emalına və iş icraatına mənfi təsir göstərməsi | Gömrük əməkdaşlarının vəzifə təlimatlarının yazılması və əsasnamələrin faktiki fəaliyyətə uyğun şəkildə redaktəsi | Struktur bölmələrdə iş tempi (hər struktur bölmənin məhsuldarlıq meyarı əsas götürüldükdə) artacaq, əməkdaşlar arasında işlərin bölünməsi ölçüldükdə bərabərsizlik azalacaq. | **Müvafiq bölmələrin rəyi nəzərə alınmaqla HTİ** | **Dəqiqləşdi-riləcəkdir** | Risk ehtimal olunmur |
| | İşlərin düzgün bölgüsünə nəzarətin təmin edilməsi üçün inzibati tədbirləri nəzərdə tutan sənədin hazırlanması | | **DTİ** | **01.12.2022** | Risk ehtimal olunmur |
| | Komitənin sənəd dövriyyəsində lüzumsuz mərhələlərin aradan qaldırılması, elektron sənəd dövriyyəsinin müasir-ləşdirilməsinə (QR kod) və təkmilləşdiril-məsinə dair təkliflərin hazırlanması | | **İİTİ<br>TİSBİ<br>HTİ** | **01.12.2022** | Risk ehtimal olunmur |
| **15. İnzibati (qısa idxal bəyannaməsinin verilməməsinə görə tətbiq olunan inzibati cərimələr) və hüquqi tədbirlərin icrası (ixrac olunan mallar müqabilində əldə olunmuş valyuta sərvətlərinin ölkəyə gətirilməməsi və s.) ilə bağlı məsələlər** | | | | | |
| **15.1.** Gömrük qaydalarını pozan şəxslərin məsuliyyətə alınması üçün qanunvericilikdə mövcud prosedurun mürəkkəbliyi (hüquqi şəxslərə məhkəmə tərəfindən tənbehin tətbiqi); | **15.1.1.** Gömrük qaydalarının pozulmasına görə məsuliyyət nəzərdə tutan normaların (qısa idxal bəyannamələrinin vaxtında verilmə-məsinə, saxlanc, müvəqqəti idxal və müvəqqəti ixrac müddətlərinin pozulmasına görə tətbiq olunan cərimələr) İnzibati Xətalar Məcəlləsindən çıxarılmaqla maliyyə sanksiyası kimi Gömrük Məcəlləsinə əlavə edilməsi (Vergi Məcəlləsinə uyğun olaraq eyni xarakterli pozuntulara görə Vergi | Gömrük qaydalarını pozan şəxslərə sadə prosedurla tənbeh tətbiqetmə mümkün olacaq, gömrük qaydalarının pozulması hallarına görə məhkəmə baxışı azalaq, sahibkarlıq məmnuniyyəti artacaq. | **HTİ<br>ƏİBİ<br>TİSBİ** | **01.01.2023** | Əlaqəli dövlət qurumları ilə razılaşma və qanunvericiliyə dəyişikliklər edilməsi üçün hüquqi prosedur prosesi ləngidə və mümkünsüz edə bilər.<br>**Qabaqlayıcı tədbir:**<br>Müvafiq qanunvericilik aktları razılaşdırmaya göndərilməzdən əvvəl aidiyyəti dövlət qurumları ilə dəyirmi masanın təşkil edilməsi |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| | Xidmətinin özü tərəfindən tətbiq olunan maliyyə sanksiyaları modeli).<br>**15.1.2.** dövlət qurumları ilə məlumat mübadiləsini çevik və operativ surətdə təmin etmək məqsədi ilə müvafiq informasiya resurslarına inteqrasiya etmək (elektron məhkəmə, elektron icra və s.) | | | | |
| **15.2.** hüquq pozuntularının aşkar edilməsi zamanı bəzi hallarda ciddi prosessual pozuntulara yol verilməsi əlavə istintaq hərəkətləri aparmağa, sübutetmə keyfiyyətinin aşağı səviyyəyə düşməsi, bu səbəblərdən işləri qısa müddətdə başa çatdırmaq mümkünsüz olduğundan süründürməçilik təsəvvürünün yaranması | **15.2.1.** Hüquq pozuntuları aşkar edilən hallar üzrə gömrük nəzarətinin prosessual hərəkət ardıcıllığı və sənəd tərtibatının vahid formaya salınması | Xüsusi qərar, intizam icraatı halları azalacaq və latent pozuntuların aşkar edilməsi üçün lazımi şərait yaranacaq. | **ƏİBİ**<br>**GNTTABİ** | **01.12.2022** | Risk ehtimal olunmur |
| | **15.2.2.** Ayrı-ayrı hüquq pozuntularının aşkar edilməsi taktikası, texnikası və metodikasının hazırlanması | | **ƏİBİ**<br>**DGKA** | **01.02.2023** | Risk ehtimal olunmur |
| | **15.2.3.** MGEİ-nin hüquq pozuntularının kriminalistik tədqiqi ilə əlaqədar bazasının gücləndirilməsi və gələcəkdə dövlət məhkəmə ekspertizası qurumuna çevrilməsi üçün elmi-metodik təcrübəsinin artırılması üçün layihələrin hazırlanması | | **MGEİ**<br>**ƏİBİ**<br>**HTİ** | **01.11.2022** | Risk ehtimal olunmur |

Qrup rəhbəri: Xaqani Süleymanlı

Qrup üzvləri: Maqsud Səfərov, Fuad Məmmədov, Əliəkbər Heydərov

## **Qrup 6:** (fəaliyyətin qiymətləndirilməsi, CRM)

### 13. Əsas Fəaliyyət Göstəriciləri (ƏFG) ilə bağlı məsələlər

### 7. Şəxslərlə əlaqələrin idarə edilməsi (CRM) ilə bağlı məsələlər

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| **13. Əsas Fəaliyyət Göstəriciləri (ƏFG) ilə bağlı məsələlər** | | | | | |
| **13.1.** Əsas fəaliyyət göstəricilərinin olmaması | **13.1.1.** Daxilolma ƏFG-lərinin formalaşdırılması | İl ərzində yığılmış büdcə daxilolmalarının məbləğlərinin proqnoz olunmuş məbləğlərə nisbətinin dinamikası | **GTTÖBİ SİATİ** | **Rüblük** | Risk ehtimal olunmur |
| | | İl ərzində yığılmış büdcə daxilolmalarının gömrük ödənişlərinin növləri üzrə məbləğlərinin proqnoz olunmuş məbləğlərə nisbətinin dinamikası | **GTTÖBİ SİATİ** | **Rüblük** | Risk ehtimal olunmur |
| | | Yaranmış gömrük borclarının ümumi büdcə daxilolmalarında payının dinamikası | **GTTÖBİ SİATİ** | **Rüblük** | Risk ehtimal olunmur |
| | | Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən dərc edilən idxal göstəriciləri və dünya ölkələrinin dərc etdiyi respublikamıza ixrac göstəriciləri arasında fərqin dinamikası | **TİSBİ SİATİ** | **İllik** | İdxalda tərəfdaş ölkələrin gömrük statistikasının metodologiyasının əldə oluna bilməməsi və statistik məlumatların qeyri-dəqiqlik riski<br>**Qabaqlayıcı tədbir:** Statistik məlumatların əldə oluna bilmədiyi ölkələrlə məlumat mübadiləsi üzrə əlaqələrin qurulması |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| | **13.1.2.** Ödəyici (vətəndaş) məmnuniyyəti ƏFG-lərinin formalaşdırılması | Gömrük işi ilə bağlı gömrük orqanlarına qarşı məhkəmə və Apelyasiya Şurasına qaldırılmış iddialarının sayının dinamikası | **HTİ**<br>**İİTİ** | **Rüblük** | Risk ehtimal olunmur |
| | | Gömrük işi ilə bağlı gömrük orqanlarına qarşı qaldırılmış və məhkəmə tərəfindən gömrük orqanları əleyhinə qərar qəbul edilmiş iddiaların gömrük orqanlarına qarşı qaldırılmış iddiaların ümumi sayında payı | **HTİ** | **Rüblük** | Risk ehtimal olunmur |
| | | Şikayətlərin sayının dinamikası | **SİATİ**<br>**İİTİ** | **Rüblük** | Risk ehtimal olunmur |
| | | Nəqliyyat vasitələrinin gömrük sərhədindən keçidinə və malların gömrük rəsmiləşdirilməsinin başa çatmasına sərf olunan ortalama müddətin dinamikası | **TİSBİ**<br>**SİATİ** | **Rüblük** | Müddətlərdəki kənarlaşmaların böyük olmasının nəticəyə ciddi təsiri (bəzi sərhəd gömrük buraxılış məntəqələrində vaxtı ölçmək üçün infrastrukturun uyğun olmaması, TRS sisteminin yerləşməsi ilə bağlı problemlər) |
| | | Keçirilən sorğularda ümumi məmnunluq faizinin dinamikası | **SİATİ** | **Rüblük** | Risk ehtimal olunmur |
| | **13.1.3.** Əməkdaş məmnuniyyəti ƏFG-lərinin formalaşdırılması | Əməkdaşların işçi məmnuniyyətinin ölçülməsi məqsədilə keçirilmiş anonim sorğular nəticəsində məmnunluq səviyyəsinin dinamikası | **SİATİ**<br>**TİSBİ**<br>**İRİ** | **Yarımillik** | Sorğuların əhəmiyyətinə və anonimliyinə etimadın az olması nəticəyə mənfi təsir edə bilər |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| | | | | | **Qabaqlayıcı tədbir:** Sorğuların nəticə verəcəyinə və anonimliyin təmin ediləcəyinə əməkdaşlar arasında inamın yaradılması |
| | | Keçirilmiş sorğuların nəticəsi ilə bağlı əməkdaşların işçi məmnuniyyətinin qaldırılması məqsədilə yaradılmış fokus qrupları tərəfindən aparılmış müzakirələrdə həll olunan problemlərin sayının müzakirələrdə qaldırılmış problemlərin sayına nisbəti | **İRİ** **Aidiyyəti struktur bölmələr** | **Yarımillik** | Risk ehtimal olunmur |
| | **13.1.4.** Şəffaflıq ƏFG-lərinin formalaşdırılması | Maraqlı tərəflər (Biznes və Sahibkar Cəmiyyətləri, vətəndaşlar) ilə keçirilmiş görüşlərin sayının dinamikası | **MİƏİ** **Aidiyyəti struktur bölmələr** | **İllik** | Risk ehtimal olunmur |
| | | Vəzifədən sui-istifadə və korrupsiya halları ilə əlaqədar məsuliyyətə cəlb olunmuş əməkdaşların sayının dinamikası | **DTİ** | **Yarımillik** | Risk ehtimal olunmur |
| | | Kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə Dövlət Gömrük Komitəsi tərəfindən rəsmi paylaşımların sayının dinamikası | **MİƏİ** | **Rüblük** | Risk ehtimal olunmur |
| | | Tətbiqi nəzərdə tutulan yeniliklərlə bağlı maraqlı tərəflərlə öncədən keçirilmiş | **MİƏİ** | **İllik** | Risk ehtimal olunmur |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| | | görüşlərin sayı və əhatəlik dərəcəsi (iştirak edən İctimai Birliklər, Vətəndaşlar, Cəmiyyətlər və Assosiasiyaların sayı) | **Aidiyyəti struktur bölmələr** | | |
| | | Xidmətlərin əlçatanlığının ölçülməsi ilə bağlı keçirilmiş sorğuların məmnunluq faizi | **MİƏİ** | **Rüblük** | Risk ehtimal olunmur |
| | **13.1.5.** DGK-nın struktur vahidləri üzrə ƏFG-lərin formalaşdırılması üçün metodikanın hazırlanması | Qurumdaxili hər bir struktur vahidin fəaliyyətinin göstəricilər əsasında qiymətləndirilməsi mümkün olacaq | **Aidiyyəti struktur bölmələr** | **01.03.2023** | Bəzi struktur vahidlərinin fəaliyyətinin ölçülə bilən meyarının olmaması<br><br>**Qabaqlayıcı tədbir:** Ölçülə bilməyən meyarların subyektiv meyarlar vasitəsi ilə ölçülməsi |
| **7. Şəxslərlə əlaqələrin idarə edilməsi (CRM) ilə bağlı məsələlər** | | | | | |
| **7.1.** Şikayətlərin dinamikasının təhlil olunmaması | **7.1.1.** Maraqlı tərəflərin müəyyənləşdirilməsi və şikayətlərin maraqlı tərəflər üzrə kateqoriyalaşdırılması | Maraqlı tərəflərin müəyyənləşdirilməsi problemlərin dəqiq araşdırılmasına şərait yaradacaq;<br>Qanunvericilikdə və icra prosedurlarında edilmiş dəyişikliklərin əsas təsir dairələri müəyyənləşəcək. | **SİATİ İİTİ** | **15.09.2022** | Risk ehtimal olunmur |
| | **7.1.2.** Çağrı mərkəzi və İnzibati idarələrə edilən şikayətlərin şikayətlər və maraqlı tərəflər üzrə kateqoriyalara bölünüb aylıq təhlil olunması | **Şikayətlərin davamlı təhlil olunması:**<br>- Artmaqda olan problemlərin vaxtında təhlil olunub uyğun həllərin tapılmasına imkan yaradılacaq;<br>- Maraqlı tərəflərlə keçirilən görüşlər zamanı hədəf kütlələri müəyyənləşəcək; | **SİATİ İİTİ** | **Mütəmadi** | Risk ehtimal olunmur |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| | | - Problemlərin həlli üçün görülən tədbirlərin səmərəliliyini izləmək mümkün olacaq. | | | |
| **7.2.** Vətəndaş məmnuniyyəti ilə bağlı məlumatların dövri olaraq toplanılmaması | **Sorğuların keçirilməsi:**<br>**7.2.1.** Xarici ticarət iştirakçıları, fiziki şəxslər və gömrük təmsilçiləri üçün Elektron Portal (e.customs.gov.az, smart customs) vasitəsi ilə respondentlərin kateqoriyalarına uyğun olaraq sorğuların təkmilləşdirilməsi, daha diqqət cəlb edici formada yerləşdirilməsi və sorğuda iştirakın stimullaşdırılması;<br>**7.2.2.** Gömrük əməliyyatından sonra (rəsmiləşdirilmə) əməliyyat barədə məmnunluq dərəcəsinin bildirilməsi imkanının yaradılması (çox narazıyam, narazıyam, razıyam, çox razıyam);<br>**7.2.3.** Ölkə sərhədindən keçən şəxslər üçün sorğuların hazırlanması və könüllü gömrükçülər vasitəsilə aidiyyəti idarələrdə davamlı olaraq keçirilməsi;<br>**7.2.4.** Sorğuların keçirilməsində sosial şəbəkələrdən istifadə edilməsi | Vətəndaş məmnunluğu ilə bağlı məlumatlar toplanılmaqla təhlillər aparılacaq, xidmət səviyyəsinin ölçülməsinə nail olunacaqdır | **TİSBİ**<br>**SİATİ**<br>**MİƏİ** | **30.09.2022** | Sorğularda iştirakın stimullaşdırılması ilkin nəticələrdə mənfi rəylərin əldə olunması ilə nəticələnə bilər<br><br>**Qabaqlayıcı tədbir:** Sorğu keçirilənədək məmnunluğun artırılması istiqamətində görülmüş işlərin ictimaiyyətə çatdırılması |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| | **7.2.5.** Sorğuların nəticələrinin rüblük olaraq kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə paylaşılması | Sorğuların nəticələrinin kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə yerləşdirilməsi Dövlət Gömrük Komitəsinin şəffaflığını artıracaq | **MİƏİ** | **Rüblük** | Risk ehtimal olunmur |
| | **7.2.6.** Ərazi və ixtisaslaşdırılmış gömrük idarələrində Çağrı Mərkəzinə zəngləri təşviq edən məlumat lövhələrinin yerləşdirilməsi | Məlumat lövhələrinin yerləşdirilməsi Çağrı Mərkəzinə zəngləri təşviq edərək məlumatların toplanılmasına şərait yaradacaq | **SİATİ Aidiyyəti struktur bölmələr** | **10.10.2022** | Tələb olunan maliyyə vəsaitinin ayrıla bilməməsi<br>**Qabaqlayıcı tədbir:** Komitənin illik xərclərinin tərtib olunması zamanı bu istiqamətdə maliyyə vəsaitinin nəzərə alınması |
| **7.3.** Gömrük orqanlarının imicinin öyrənilməsi və davamlı olaraq strateji hədəflər üzrə formalaşdırılması | **7.3.1.** Digər qurumların təcrübələrinə istinad edərək şəhərin müxtəlif ərazilərində gömrük siyasətini dəstəkləyən, könüllü riayət prinsipini əks etdirən məlumat verici lövhələrin ("billboard"ların) yerləşdirilməsi | - Gömrük orqanlarının cəmiyyətdə imicinin hədəflər üzrə formalaşmasına şərait yaradacaq<br>- Könüllü riayət prinsipini təşviq edəcək | **SİATİ Aidiyyəti struktur bölmələr** | **Dəqiqləşdiriləcəkdir** | Tələb olunan maliyyə vəsaitinin ayrıla bilməməsi<br>**Qabaqlayıcı tədbir:** Komitənin illik xərclərinin tərtib olunması zamanı bu istiqamətdə maliyyə vəsaitinin nəzərə alınması |
| **7.4.** Şəffaflığın artırılması istiqamətində tədbirlərin təkmil olmaması | **7.4.1.** Qanunvericilikdə nəzərdə tutulmuş dəyişikliklərin öncədən maraqlı tərəflərlə görüşüb müzakirələrin aparılması<br>**7.4.2.** Sosial şəbəkələrdə gömrük prosedurlarına dair izahedici məlumatların və qanunvericiliyin vətəndaşlara anlaşıqlı formada şərhinin yerləşdirilməsi | - Dövlət Gömrük Komitəsinin şəffaflığını və imicini artıracaq<br>- Gömrük işi sahəsində tətbiq edilən yeniliklər, təməl zəruri biliklərlə bağlı cəmiyyətin məlumatlılıq səviyyəsi artacaq<br>- Dezinformasiyaların, yanlış məlumatların yayılmasının qarşısının alınmasına, təbliğat | **MİƏİ Aidiyyəti struktur bölmələr** | **İllik** | Risk ehtimal olunmur |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| | **7.4.3.** Qanunvericilikdə edilmiş dəyişikliklərin qısa zamanda cəmiyyətə çatdırılması<br>**7.4.4.** Gömrük orqanları ilə əlaqəli digər qurumların fəaliyyətinə dair dəyişikliklərin və yeniliklərin qısa zamanda cəmiyyətə çatdırılması | işində alternativ mənbələrin yaranmasına, məlumatlılığın artmasına, qurumun nüfuzunun yüksəlməsinə müsbət təsir göstərəcək | | | |
| | **7.4.5.** ÜGT-nin "Gömrük-Biznes Tərəfdaşlığı" sənədinə uyğun strategiyanın hazırlanması | Dünya təcrübələrinə istinad edərək Maraqlı Tərəflərlə tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi | **MİƏİ**<br>**Aidiyyəti struktur bölmələr** | **01.03.2023** | Risk ehtimal olunmur |

Qrup rəhbəri: Kənan Əsədov
Qrup üzvü: Adil Muradov

## QRUP 7 (sərhəd keçidini çətinləşdirən məsələlər, poçt göndərişləri və e-ticarət)

### 3.2. Fiziki şəxslərin və onlara məxsus qeyri-kommersiya təyinatlı malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi və rəsmiləşdirilməsi, o cümlədən beynəlxalq poçt göndərişləri və e-ticarətlə bağlı məsələlər

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| **3.2. Fiziki şəxslərin və onlara məxsus qeyri-kommersiya təyinatlı malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi və rəsmiləşdirilməsi, o cümlədən beynəlxalq poçt göndərişləri və e-ticarətlə bağlı məsələlər** | | | | | |
| **3.2.1.** Gömrük sərhəd buraxılış məntəqələrində mövcud infrastruktur imkanlarının sərhədkeçmə zamanı buraxılış qabiliyyətinin məhdudlaşdırılmasına səbəb olması. | İnfrastruktur dəyişikliyi edilməklə mövcud sərnişin keçid xətlərinin genişləndirilməsi, eləcə də yeni sərnişin və minik nəqliyyat vasitələri üzrə ixtisaslaşmış gömrük sərhəd buraxılış məntəqələrinin tikintisi məqsədilə layihələrin hazırlanması. | Şəxslərin gömrük sərhədindən keçidi zamanı növbələrin sayı azalacaq, şəxslərin fasiləsiz keçidi təmin olunacaqdır. | **GSBMİTBİ İİİ** | **31.12.2022** | Risk ehtimal olunmur |
| **3.2.2.** Beynəlxalq poçt göndərişləri və e-ticarət sahəsində gömrük əməliyyatlarının və qanunvericiliyinin təkmil olmaması. | 3.2.2.1. "Azərpoçt" MMC vasitəsilə sifariş olunan malların vətəndaşlar tərəfindən "Smart customs" tətbiqi vasitəsilə bəyan olunması, eləcə də mütəmadiliyin müəyyən edilməsi mexanizminin işlənib hazırlanması; | Qanunvericiliklə nəzərdə tutulmuş fiziki şəxslər tərəfindən gömrük sərhədindən keçirilən mallara dair məhdudiyyətlərə nəzarətin səmərəliliyi güclənəcək və gömrük orqanının məlumat bazasında qeyd olunan məlumatlar öz əksini tapacaqdır (mütəmadilik, limiti keçməmək və s.). | **GSBMİTBİ TİSBİ HNBGİ** | **31.12.2022** | Vətəndaşların bəyanetmə zamanı səhvlərə yol verməsi, həmçinin digər texniki problemlər yarana bilər.<br><br>**Qabaqlayıcı tədbir:** |
| | 3.2.2.2. Daşıyıcı şirkətlər vasitəsilə gətirilən mallara münasibətdə "Smart customs" tətbiqi vasitəsilə yanlış bəyan etmə zamanı gömrük orqanının icazəsi ilə bəyannaməyə düzəlişin olunması (kiçik nöqsanların | Vətəndaşların gömrük orqanlarında saatlarla vaxt itkisinin qarşısını alacaq, həmçinin gömrük-vətəndaş təmasını minimallaşdıracaq və şikayət xarakterli müraciətlərin sayı azalacaqdır. | **GSBMİTBİ TİSBİ** | **31.12.2022** | Bu barədə şəxslər ətraflı məlumatlandırılacaq. |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| | operativ həlli) üçün elektron imkanların yaradılması; | | | | |
| | 3.2.2.3. Fiziki şəxslər tərəfindən poçt vasitəsilə ölkə ərazisinə göndərilən bağlamalara münasibətdə saxlancla bağlı əlavə ödənişlərin yaranmaması imkanlarının araşdırılması; | Saxlancla bağlı əlavə ödənişlərin yaranmaması fiziki şəxslərin beynəlxalq poçt göndərişlərinə görə əlavə ödənişlərdən azad olunması ilə nəticələnəcəkdir və şikayətlər azalacaqdır. | **GSBMİTBİ GNTTABİ İİİ HNBGİ** | **31.12.2022** | |
| | 3.2.2.4. E-ticarət vasitəsilə alınaraq ölkə ərazisindən aparılan mallar ilə bağlı gömrük yığımları baxımından qanunvericilikdə dəyişikliklərin edilməsi və ya "Smart customs" tətbiqi vasitəsilə bəyanetmə imkanının yaradılması; | E-ticarət inkişaf edəcək, eyni zamanda ticarət dövriyyəsi artacaq. | **GSBMİTBİ GTTÖBİ TİSBİ** | **01.12.2022** | |
| | 3.2.2.5. Beynəlxalq poçt göndərişlərinin bəyan edilməsi prosesinin daşıyıcı şirkətlərin internet səhifələrinə inteqrasiya edilmiş "Smart customs" sistemi vasitəsilə həyata keçirilməsi; | Qanunvericiliyin tələblərinə tam riayət olunacaq, məlumat bazasında bəyannamələrin sayı azalacaq, təkrarçılıq aradan qalxacaq, şəxslərin məmnunluq səviyyəsi artacaq, gömrük-vətəndaş təması azalacaq. | **GSBMİTBİ TİSBİ** | **01.12.2022** | |
| | 3.2.2.6. Bəzi hallarda gömrük ödənişlərinin geri qaytarılması zərurəti yarandığı üçün "Smart customs" mobil tətbiqində "balans" və ya "elektron-cüzdan" imkanının yaradılması. | Şəxslərin gömrük orqanına fiziki yaxınlaşması nisbətən məhdudlaşacaq, arzu edildiyi halda daşıyıcı vasitəsi ilə malların buraxılışının təmin edilməsi mümkün olacaq, ödənişlərin geri qaytarılması üçün mərhələli və çətin prosesin, | **GSBMİTBİ GTTÖBİ TİSBİ** | **01.12.2022** | |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| | | təkrar yazılı müraciətlərin həyata keçirilməsi üçün zərurət ortadan qalxacaq. | | | |
| **3.2.3.** Gömrük sərhədindən keçirilən qeyri-kommersiya təyinatlı mallar üzrə gömrük əməliyyatlarının təkmil olmaması. | 3.2.3.1. Fiziki şəxslər tərəfindən gətirilən kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların elektron sistem vasitəsilə uçotunun aparılması məqsədilə qanunvericilikdə dəyişikliyin edilməsi; | Elektron sistem vasitəsilə uçotun aparılması fiziki şəxslər tərəfindən təyinatı istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara qanunvericiliklə tətbiq olunmuş məhdudiyyətlərə nəzarəti gücləndirəcəkdir, eləcə də sadələşdirilmiş bəyannamələr əsassız tərtib olunmamaqla yalnız qanunvericilikdə nəzərdə tutulan hallar nəzərə alınmaqla tərtib olunacaq və sistem üzrə bəyannamələrin sayı azalacaqdır. | **GSBMİTBİ**<br>**HTİ**<br>**TİSBİ** | **31.12.2022** | |
| | 3.2.3.2. Fiziki şəxslər tərəfindən ölkə ərazisinə gətirilən malların saxlanca götürülməsi işinin təkmilləşdirilməsi (saxlanc müddətinin dəyişdirilməsi, əməliyyatların sadələşdirilməsi və s.) məqsədilə qanunvericilikdə dəyişiklik edilməsi; | Saxlanc proseslərinin təkmilləşdirilməsi fiziki şəxslərin vətəndaş məmnunluğunun artıracaq və bu sahədə şikayətlərin sayını azaldacaqdır. | **GSBMİTBİ**<br>**HTİ** | **01.11.2022** | |
| | 3.2.3.3. Ölkə ərazisinə gətirilməsinə icazə tələb olunan malların turistlər tərəfindən tranzit keçirilməsinin sadələşdirilməsi məqsədilə texnoloji sxemin hazırlanması və qanunvericilikdə dəyişiklik edilməsi; | Vətəndaş məmnunluğunu artıracaq və bu sahədə şikayətlərin sayını azaldacaqdır. | **GSBMİTBİ**<br>**HTİ** | **01.11.2022** | |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| | 3.2.3.4. Qeyri-kommersiya təyinatlı malların şəxsi istifadə məqsədilə ölkə ərazisinə gətirilərək kommersiya adı altında satışının qarşısının alınması üçün digər dövlət qurumları ilə birgə fəaliyyətin təşkil olunması üçün birgə nəzarət mexanizmlərinin təşkil edilməsi üçün təkliflərin hazırlanması; | Qeyri-kommersiya təyinatlı malların şəxsi istifadə məqsədilə ölkə ərazisinə gətirilərək kommersiya məqsədilə satılmasının qarşısının alınması kölgə iqtisadiyyatı ilə mübarizədə müsbət təsirini göstərəcək və gömrük ödənişlərindən yayınma hallarının qarşısını alacaq və büdcə daxilolmalarının sayının artıracaqdır. | **GSBMİTBİ**<br>**GTTÖBİ**<br>**GRİABİ** | **01.11.2022** | |
| | 3.2.3.5. Gömrük qaydaları əleyhinə olan inzibati xətalar barədə cərimələrin gömrük sərhəd buraxılış məntəqələrində tətbiqi məqsədilə göstərişin hazırlanması; | Gömrük sərhəd buraxılış məntəqələrində rejim qaydalarının tənzimlənməsində, rüsum və vergilərdən yayınmaqla kommersiya xarakterli malları ayrı-ayrı şəxslərə paylanılması yolu ilə gömrük nəzarətindən keçirməklə məşğul olan şəxslərə qarşı mübarizə aparılmasında, böyük əhəmiyyət kəsb edəcək və inzibati xəta protokollarının say nisbətində özünü göstərəcəkdir. | **GSBMİTBİ**<br>**ƏİBİ**<br>**HTİ** | **01.11.2022** | |
| | 3.2.3.6. Sadələşdirilmiş qaydada gətirilən malların sərhəd buraxılış məntəqələrində və ya müvafiq ərazi gömrük orqanlarında rəsmiləşdirilməsi işinin təşkili məqsədilə mexanizmin hazırlanması. | Sərhədkeçmə prosesi sürətlənəcək, rəsmiləşmə prosesi sadələşdiriləcək, ərazi gömrük orqanlarında sadələşdirilmiş qaydada rəsmiləşdirilən malların sayı artırılacaq, eləcə də vətəndaş məmnunluğu təmin olunacaq və bu sahədə şikayətlərin sayı azalacaqdır. | **GSBMİTBİ**<br>**GTTÖBİ**<br>**GNTTABİ** | **01.12.2022** | |
| **3.2.4.** Gömrük sərhədindən keçirilən minik nəqliyyat vasitələri üzrə gömrük əməliyyatlarının və | 3.2.4.1. Digər təminat üsullarından istifadə etməklə müvəqqəti gətirilən xarici nəqliyyat vasitələrinin qeydiyyat müddətinin artırılması və bu imkanın bütün ərazi | Gömrük sərhəd buraxılış məntəqələrində fiziki şəxslərin nəqliyyat vasitələri ilə keçidinin sürətləndirilməsi, vətəndaş məmnunluğunun təmin olunması, həmçinin əlavə vaxt itkisinə | **GSBMİTBİ**<br>**GTTÖBİ** | **01.11.2022** | Şəxslərin və nəqliyyat vasitələrinin axını çoxala bilər. |

| MƏSƏLƏNİN TƏSVİRİ | MƏSƏLƏNİN HƏLLİ YOLU | GÖZLƏNİLƏN NƏTİCƏ | İCRAÇI | TARİX | RİSK |
|---|---|---|---|---|---|
| qanunvericiliyinin təkmil olmaması. | gömrük orqanları üçün yaradılması ilə bağlı təlimatın hazırlanması; | yol verilməməsi ilə nəticələnəcək və bu sahədə şikayətlərin sayı azalacaqdır. Həmçinin digər təminat vasitələrindən istifadə olunması hallarında artım müşahidə olunacaqdır. | | | **Gömrük nəzarəti səmərəli təşkil olunmaqla məsələ öz həllini tapacaq.** |
| | 3.2.4.2. Fiziki şəxslər tərəfindən ölkə ərazisinə sərbəst dövriyyəyə buraxılması məqsədilə gətirilən minik nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi prosesinin sadələşdirilməsi məqsədilə elektron həllərin yaradılması; | Rəsmiləşdirmə prosesi sürətlənəcək, eyni zamanda vətəndaşların əlavə vaxt itkisinin olmamasına səbəb olacaqdır. | **GSBMİTBİ TİSBİ** | **01.12.2022** | |
| | 3.2.4.3. Fiziki şəxslər tərəfindən ölkə ərazisinə müvəqqəti qaydada gətirilən minik nəqliyyat vasitələrinin GSBM-ində qeydiyyat prosesinin sadələşdirilməsi və sürətləndirilməsi məqsədilə nəqliyyat vasitələri barədə məlumatların öncədən elektron həllər vasitəsilə təqdim edilməsi imkanının yaradılması. | GSBM-ində əlavə vaxt itkisinə səbəb olan tıxaclar və uzun növbələr aradan qalxmaqla vətəndaşların məmnuniyyəti yüksələcək, həmçinin iş yükü azalmaqla səmərəli gömrük nəzarəti təşkil olunacaqdır | **GSBMİTBİ TİSBİ** | **01.12.2022** | |

Qrup rəhbəri: Vasif Qurbanov

Qrup üzvləri: İlkin Hüseynzadə, Elşad Salamov, Üzel Gülmalıyev